QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 199 (5919) **29 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Qəbələ və Ağdaş rayonlarına səfər edib*

Səh 2



4

**Qoşulmama Hərəkatı, Azərbaycanın milli maraqları və antimilli müxalifətin bəsit təfəkkürü**



4

**İsrailli ekspert: "Prezident İlham Əliyev islahatçılar komandası yaradır"**



7

**Azərbaycan Fransaya etiraz notası verdi!**



# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Qəbələ və Ağdaş rayonlarına səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.***

Prezident İlham Əliyevə son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verildi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıb. Məlumat verildi ki, abidənin yerləşdiyi Heydər Əliyev Parkında əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olub. Dövlətimizin başçısına istixanada görülən işlərlə bağlı məlumat verildi.

***Ardı Səh. 3***











# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Qəbələ və Ağdaş rayonlarına səfər edib*









Əvvəli səh. 2

Bildirildi ki, “AzRose” MMC xüsusi qızılgül növlərinin yetişdirilməsi üçün Qəbələ rayonunun Vəndam qəsəbəsində istixanaların quraşdırılması işlərinə 2017-ci ildən başlayıb. Qəbələ istixana kompleksinin yaradılmasında 90 illik holland təcrübəsinə malik “Bosman van Zaal” şirkətinin texnoloji yeniliklərindən istifadə olunub. Burada “Red Naomi”, “Avalanj”, “Talea”, “Aqua”, “Sweet Avalanj”, “Jumilia”, “Wow” və “London eye” kimi xüsusi qızılgül növləri yetişdirilir, yerli və xarici bazarlara satışa çıxarılması hədəflənir. Bu məhsullar bazara “Made in Azerbaijan” brendi ilə çıxarılacaq. Bundan məqsəd həm ölkəmizin adını beynəlxalq arenada uğurla təmsil etmək, həm də bu brend adı altında çeşidin çoxalmasına töhfə verməkdir.

Oktyabrın 28-də Qəbələ rayonunda 110/35/10 kilovoltluq “Qəbələ” elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyada yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısı “Qəbələ” elektrik yarımstansiyasını və eyni zamanda, yenidən qurulan 110/35/10 kilovoltluq “Ağdaş” elektrik yarımstansiyasını işə saldı.

Oktyabrın 28-də Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dünən həmçinin “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib. Filialda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşüb. Bundan başqa, Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdaş şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyevə son illər rayonda görülən işlər, həyata keçirilən layihələr, eləcə də Ulu



Öndərin abidəsi ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib. Ağdaş rayonunda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılış mərasimində iştirak edib. Oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dünən həmçinin Ağdaş Rayon Telekommunikasiya Qovşağında “Şəbəkə” Xidmət Mərkəzi istifadəyə verilib. Bundan başqa, Ağdaşda Biyan Sənaye Parkının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

# Qoşulmama Hərəkatı, Azərbaycanın milli maraqları və antimilli müxalifətin bəsit təfəkkürü

***Sıralarında 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Bakıda keçirilməsi ölkəmiz və regionumuz üçün olduqca mühüm əhəmiyyət kəsb edən siyasi hadisədir. Qoşulmama Hərəkatında 120 üzv dövlətlə yanaşı, həm də Birləşmiş Millətlər Təşkilatı, Afrika İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı kimi dünyanın 10 beynəlxalq nüfuzlu təsisatının, əlavə olaraq müşahidəçi statusu ilə 17 dövlətin iştirak etməsi bu təşkilatın çox ciddi və qlobal əhəmiyyət daşıyan əməkdaşlıq platforması olduğundan xəbər verir. Üzvlərinin sayına görə Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatından sonra dünyanın ən böyük beynəlxalq qurumudur.***

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda deyilir: Hazırda Qoşulmama Hərəkatına üzv olan ölkələrin ərazisində dünya əhalisinin 55 faizi yaşayır. Dünyanın neft ehtiyatlarının 75, təbii qaz ehtiyatlarının isə 50 faizindən çoxu həmin ölkələrin payına düşür. Bu isə onun həm də iqtisadi əməkdaşlıq üçün ciddi perspektiv vəd edən beynəlxalq təsisat olduğunu göstərir.

Digər tərəfdən, Hərəkatın növbəti Zirvə Görüşünün Azərbaycanda keçirilməsi ölkəmizin qlobal proseslərdəki rolunun və beynəlxalq nüfuzunun gündən-günə artdığını təsdiqləyir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi bizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür".

Qoşulmama Hərəkatının Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir. Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə dəstəkləyib, qəbul olunmuş bütün sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt 2019-cu ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının iclasında qəbul olunmuş yekun sənəddə də öz əksini tapıb. Nəticə etibarilə, dünyanın 120 dövləti, yəni, planetin təqribən üçdəiki hissəsi Azərbaycanın ədalətli mövqeyinə öz dəstəyini ifadə edib.

Azərbaycanın 2019-2022-ci illərdə Hərəkata sədrlik etməsi dövlətimizin qlobal proseslərdəki rolunu və nüfuzunu daha da artıracaq, beynəlxalq müstəvidə mövqelərimizi möhkəmləndirəcək, ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək, qeyri-neft sektorunun və ixrac potensialımızın yüksəlişinə geniş imkanlar açacaq.



Şübhəsiz, əldə olunan bütün müsbət nəticələrin əsasında Azərbaycan Prezidentinin hələ 2011-ci ildə ölkəmizin Qoşulmama Hərəkatına üzvlüyü ilə bağlı qəbul etdiyi strateji qərar dayanır. Hansı ki, bu qərar BMT Baş Assambleyasında və digər beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini dəstəkləyən ölkələrin sırasını xeyli genişləndirdi, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaratdı. Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının Bakıda keçirilən Zirvə Görüşündə yekdilliklə Azərbaycanın quruma üç il müddətinə sədr seçilməsini dəstəkləməsi də, şübhəsiz ki, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğuru və dünyada ona bəslənən etimadın göstəricisidir.

Prezident İlham Əliyev dünya siyasətinin və gündəminin müəyyənləşdirilməsində mühüm rol oynayan beynəlxalq platformalardan istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya çatdırır, ölkəmizin haqlı mövqeyini müdafiə edən ölkələrin sıralarının genişlənməsinə, Azərbaycanın qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq əməkdaşlıq məkanına çevrilməsinə nail olur, dövlətimizi addım-addım strateji hədəflərə yaxınlaşdırır. Amma xalqımızın milli maraqları üzərində qurulmuş bu siyasi kurs çox təəssüf ki, təkcə xaricdəki anti-Azərbaycan şəbəkənin, erməni lobbisinin və onun təsiri altında olan bəzi beynəlxalq qrupların deyil, həm də ölkə daxilində "milli demokrat" pərdəsinə bürünmüş bəzi radikal müxalif qrupların da müqaviməti ilə üzləşir. Hər dəfə ölkəmizdə keçirilən qlobal əhəmiyyətli tədbirlər ərəfəsində bu şəbəkə fəallaşır, cəmiyyətimizin sosial-siyasi nizamını ictimai müzakirə və fikir mübadiləsi müstəvisindən etiraz aksiyaları vasitəsilə küçələrə daşımağa, qəsdən qarşıdurma yaratmağa çalışır. Bu mənzərə 2012-ci ildə "Eurovision" musiqi müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları və digər mühüm beynəlxalq tədbirlər ərəfəsində də müşahidə olunmuşdur. Bu dəfə radikal müxalif qruplar Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünü hədəfə almış və neçə gündür ki, dövlətimizin strateji maraqlarına xidmət edən bu mühüm beynəlxalq siyasi hadisəni gözdən salmaq üçün dəridən-qabıqdan çıxırlar.

Müxalifətin apardığı kampaniyanın təhlili göstərir ki, Azərbaycan əleyhinə oxşar təbliğat yalnız Ermənistanın kütləvi informasiya vasitələri tərəfindən həyata keçirilir. Təbii ki, bu sıraya Ermənistanla və erməni diasporu ilə sıx əlaqədə olan xarici medianı də əlavə etsək, daha doğru olar. İndiki halda radikal qrupların həyata keçirdiyi insanlıqdan uzaq çirkin qarayaxma kampaniyasının tezisləri işğalçı ölkənin anti-Azərbaycan kampaniyasının ideoloji istiqamətləri ilə tam üst-üstə düşür. Sanki hər iki qütb vahid mərkəzdən idarə olunur, yaxud ortaq və razılaşdırılmış maraqlara uyğun hərəkət edir. Görünür, oktyabrın 19-da həyata keçirilən qanunsuz mitinq cəhdinin də əsas məqsədi təkcə hakimiyyəti nəyəsə məcbur etmək deyil, həm də ölkə daxilində vəziyyəti gərginləşdirərək, dövlət qurumlarını adekvat addımlar atmağa məcbur etmək və xaricdəki anti-Azərbaycan şəbəkənin hərəkətə gəlməsi üçün zəmin yaratmaqdan ibarət olub.

Düşünürəm ki, Zirvə Görüşündən öncə radikal qrupların prosesə mane olmaq üçün atdığı addımlar, törətdikləri hüquqazidd hərəkətlər barədə təkrar fikir söyləməyə ehtiyac yoxdur. Lakin görünən odur ki, radikal müxalifətin xaricdən aldığı sifariş və təlimatlara uyğun formada prosesə mane olmaq cəhdləri iflasa uğradığına və xaricdəki şəbəkənin süni şəkildə ajiotaj yaratmaq səyləri heç bir nəticə vermədiyinə görə indi də onlar nəzarətlərində olan media və sosial şəbəkələr vasitəsilə bu mühüm siyasi tədbirə qarşı kampaniya təşkil etmək yolunu tutublar. Məqsədlərinə çatmaq üçün hətta tədbirdə iştirak edən dövlət və hökumət başçılarını məsxərəyə qoymaq kimi qeyri-etik, mənəviyyatsız addımlardan belə çəkinmirlər. Bu, radikal müxalifətin beynəlxalq hüquqdan, beynəlxalq münasibətlər sistemindən xəbərsiz, müasir siyasi düşüncədən uzaq, gerizəkalı, bəlkə də ibtidai icma təfəkkürünə malik olmasının əyani göstəricisidir. Müstəqil hüququn subyektlərini onların inkişaf səviyyələri, əraziləri, yaxud resurslarına görə məsxərəyə qoymaq məhz belə ibtidai icma təfəkkürünün nümunəsidir. Bu, ən yaxşı halda dövlətlər arasında hüquq bərabərliyinin qəbul və yaxud dərk edilməməsi, ən pis halda isə irqçi düşüncənin təzahürüdür. Radikal müxalifətin belə idbar təfəkkürünün fonunda Azərbaycan Prezidentinin nə qədər işıqlı zəkaya, milli və bəşəri dəyərlərə, humanizmə söykənən düşüncə tərzinə malik olduğu bir daha qabarıq və aydın nəzərə çarpır. Məhz bu aydın, işıqlı təfəkkür də Azərbaycanı gələcəyə, böyük qələbələrə doğru aparır.

Yenə də artıq bir neçə dəfə səsləndirdiyim fikri təkrarlamağa məcburam: biz bu bəsit və ziyanlı təfəkkürlə hərəkət edən müxalifətlə hara gedirik? Cəmiyyət daxilində səsini ucaltmağa, siyasi hakimiyyətə iddia etməyə çalışan bu antimilli qrupların özbaşınalığına nə vaxtadək dözməliyik? Artıq sağlam məntiqdən uzaq davranışlarla gündəmdə qalmağa çalışan, yeniləşə, müasirləşə bilməyən, dövlətçilik təfəkküründən və əxlaq normalarından uzaq radikal müxalif qrupların siyasi səhnədən getməsinin və konstruktiv düşüncənin önə çıxmasının zamanıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlardan müxalifət də öz payını götürməli, müasir Azərbaycana müasir azərbaycanlının gözü ilə baxmağa alışmalıdır.

## İsrailli ekspert: "Prezident İlham Əliyev islahatçılar komandası yaradır"

***İlham Əliyev Nazirlər Kabinetinin "gəncləşdirilməsi" ilə paralel olaraq dərin struktur islahatlarını davam etdirir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" Fərmanına müvafiq olaraq Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilir.***



Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut AZƏRTAC-a müsahibəsində bu barədə danışıb. Arye Qut vurğulayıb: "Ciddi kadr islahatlarına start verilib. Bu, bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin rəhbəri öz tabeliyində olanlardan bütün sahələrdə olduğu kimi, qeyri-neft sektorunda da dəyişikliklər aparılmasını və vəziyyətin yaxşılaşdırılmasını, o cümlədən bu sektora xarici investisiyalar cəlb edilməsini, biznes mühitinin yaxşılaşdırılmasını, özəl sektorun hesabına iqtisadi inkişafa nail olmağı tələb edir. Başqa sözlə desək, ölkənin iqtisadi artımı demoqrafik artımdan üstün olmalı, "xəlvəti" iqtisadiyyata, inhisarlara qarşı ciddi mübarizə aparılmalıdır".

İsrailli ekspertin fikrincə, Azərbaycan Prezidenti öz islahatçılar komandasının qarşısında dəqiq və konkret məqsədlər və vəzifələr qoyub. Bu, zamanın tələbidir, labüddür və kim bunu bacarmasa, gedəcəkdir. Arye Qut vurğulayır: "Strateji təfəkkür və mükəmməl təhsilin, müdrikliyin və analitik düşüncənin, demokratik dəyərlərin və sarsılmaz vətənpərvərliyin uğurlu sintezini özündə birləşdirən İlham Əliyev bütün bu keyfiyyətlər sayəsində Azərbaycan siyasətinə yenilikçilik, islahatçılıq və həqiqi praqmatiklik gətirib. İlham Əliyev kadr siyasəti barədə mühafizəkar təfəkkürü aradan qaldırır və gənc nəslə şans verir, onlar üçün fəaliyyət meydanı yaradır. İslahatçı Prezident ölkəni və onun real simasını dəyişən insandır. İslahatların, o cümlədən iqtidarda olan kadrların dəyişikliyinin miqyası o qədər genişdir ki, onun hazırlanması və həyata keçirilməsi üçün müəyyən vaxt lazımdır. Başqa sözlə desək, az qala hər gün müşahidə etdiyimiz struktur və kadr dəyişikliyi kortəbii şəkildə deyil, real nizamlanan prosesdir. Bu islahatlar Azərbaycanda postneft dövrünün gerçəkliklərini əks etdirir".

Ekspertin sözlərinə görə, son iki həftə ərzində aparılmış çox mühüm kadr dəyişiklikləri müəyyən nəticələrə gəlməyə əsas verir. İsrailli ekspert deyir: "Bu, Azərbaycan Prezidentinin həqiqi siyasi əzmkarlığına dəlalət edir. Prezident Azərbaycanın və yeni dövlətçilik menecmentinin yeni, islahatçı modelini yaradır. İlham Əliyev iqtisadi islahatların və kadr islahatlarının yeni dalğası barədə açıq və səmimi anons verib - müasir gənc kadrlar yeni təfəkkürə, əsaslı yeniliklər, real islahatlar barədə yeni baxışlara malik olmalıdır. İkincisi, bu iki həftə ərzində baş vermiş hadisələr kadr islahatlarının və iqtisadi islahatların zəruriliyini, dönməzliyini və genişləndiriləcəyini təsdiq edir. Biz gördük ki, bu kadr islahatları təkcə Azərbaycan hökumətinə deyil, Prezident Administrasiyasına da şamil edilir. Azərbaycanda faktiki olaraq siyasi isteblişment nəsilləri dəyişir, uzun illər boyu müasir Azərbaycan dövlətçiliyinin dayaqları olmuş insanlara dərin ehtiram nümayiş etdirilir.

Biz bu insanların güclü, müstəqil və uğurlu Azərbaycanın inkişafına verdiyi töhfələrə görə Prezidentdən yalnız təşəkkür sözləri eşitdik. Bu, bir daha sübut edir ki, söhbət sadəcə kadr islahatlarından deyil, mühüm struktur islahatlarından, ölkənin siyasi və iqtisadi menecmenti sahəsində dərin islahatlardan gedir. İqtisadi blokda əsaslı islahatların başlanmasını müşahidə edirik".

İsrailli ekspert Arye Qut sonda deyib: "Azərbaycan düzgün yolda, dəyişikliklər yolundadır. Bu yolda bütün dəyişikliklərə Prezident İlham Əliyev rəhbərlik edir. O, hər bir problem barədə düzgün təsəvvürə, zəruri islahatçı təfəkkürə, dövlətin həyat fəaliyyətinin bütün istiqamətlərinə strateji və dəqiq yanaşma imkanına malikdir".

# Azərbaycanın növbəti diplomatik zəfəri

## 120 dövlətin mövqeyi: Ermənistan işğalçı dövlətdir

***Ötən həftə Azərbaycan Respublikasının diplomatiya tarixində çox uğurlu bir hadisə baş verdi. Oktyabrın 25-26-da Bakıda dünyanın BMT Baş Assambleyasından sonra ikinci ən böyük - 120-dən çox ölkəni özündə birləşdirən, siyasi nüfuzu çox böyük olan Qoşulmama Hərəkatının Zirvə Toplantısı keçirildi. Qoşulmama Hərəkatının Dövlət və Hökumət başçılarının iştirakı ilə keçirilən Zirvə Tolantısının Yekun Bəyannaməsində ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən Yekun Bəyannamənin bəndləri qəbul edildi. Və bu Yekun Bəyannamənin, xüsusilə də, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bəndlərində Ermənistan işğalçı dövlət kimi tanındı, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olundu. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğuladılar.***

Dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayaraq, təsdiq etdilər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək.

### Sənədə "işğalçı" ifadəsinin salınması Ermənistanın təcavüzkarlığını bir daha sübuta yetirdi

Sənədə, "işğalçı" ifadəsinin salınması, Ermənistanın təcavüzkarlığını bir daha sübuta yetirdi və Ermənistan 120 dünya dövləti tərəfindən işğalçı kimi tanıdı. Həmçinin, Yekun Sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və "Vaffen SS" təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də, anti-Hitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə iş birliyi təşkil etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi də daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınadılar.

Bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş Sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub: "Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".




### Azərbaycanın böyük diplomatik uğuru

Beləliklə, Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə Görüşünün nəticəsində, Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail oldu.

Eyni zamanda, görüşdə iştirak edən dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirdilər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipini yenidən təsdiqlədilər və tərəfləri münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında danışıqlar yolu ilə həll olunmasına ruhlandırdılar.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşündə etdiyi çıxışda Ermənistanın əzəli Azərbaycan ərazilərini işğal etməsi və həyata keçirdiyi etnik təmizləmə siyasəti, eləcə də, Xocalı soyqırımı haqqında dünya ictimaiyyətini bir daha geniş şəkildə məlumatlandırdı. Eyni zamanda, ölkəmizin son 15 ildə siyasi, iqtisadi, sosial, humanitar, idman və digər sahələrdə qazandığı uğurlar barədə də ətraflı məlumat verdi.

Həmçinin, dövlət başçımız çıxışında QH-yə sədrlik dövrü üçün əsas prioritetlərimizi də açıqladı və qeyd etdi ki, bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən "Bandunq prinsipləri" Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür. Prezident İlham Əliyev Azərbaycanın QH-yə sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi "Bandunq prinsipləri" üzərində quracağını bildirdi. Həmçinin, ölkəmizin QH-nin beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhü və təhlükəsizliyi möhkəmləndirmək və dayanıqlı inkişafa və ədalətin təmin olunması üçün var gücü ilə çalışacağını söylədi.

### Qabil Hüseynli: "Zirvə görüşündə Azərbaycana qarşı erməni işğalını tanıdılar və bununla da, BMT-yə çox ciddi mesaj verildi"

Politoloq Qabil Hüseynli Qoşulmama Hərəkatının 18-ci konfransının Bakıda keçirilməsinin əhəmiyyətindən danışaraq bildirib ki, BMT tədbirlərindən sonra beynəlxalq tədbirlər sırasında ikinci yeri tutan möhtəşəm bir hadisə idi: "Ölkəyə 120 dünya ölkəsinin hökumət və dövlət başçısı, xarici işlər nazirləri, eləcə də, BMT başda olmaqla, ondan artıq beynəlxalq qurumun rəhbər heyətinə daxil olan şəxslər gəlmişdi. İndiyə qədər hərəkat dünyada sülh və təhlükəsizlik məsələlərini, dünyanı təhdid edən müxtəlif fəlakət xarakterli, sürətlə silahlanma xarakterli məsələləri belə geniş və ətraflı müzakirə etməmişdi.

Bizim üçün maraqlı olan odur ki, sədrlik artıq Azərbaycana və onun rəhbəri İlham Əliyevə keçib. Üç il ərzində ölkəmiz bu hərəkata rəhbərlik edəcək. Bizim üçün ən əlverişli olan o idi ki, konfransın Yekun Sənədində Dağlıq Qarabağla bağlı çox geniş, obyektiv, eyni zamanda, dünya ictimai rəyinə ciddi təsir göstərə biləcək müddəalar daxil edildi. Məsələn, 120 dövlətin bu müddəaya səs verməsi o deməkdir ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi və bu işğal edilmiş ərazilərdə etnik təmizləmə aparılması, hələ də bu torpaqların işğal altında qalması, bir milyondan artıq insanın zərər çəkməsi faktı Bakı sənədində öz əksini tapmaqla, dünya ictimai rəyi üçün çox qiymətli məlumatlar verdi. Açığı deyək ki, indiyə qədər Ermənistanın Azərbaycana qarşı təcavüzünün siyasi anatomiyasına açmaqda nə qədər cəhd edirdiksə, bəzi dövlətlər ikili standartlarla bu məsələlərə yanaşaraq, məsələni görməzlikdən gəlir və Ermənistanı işğalçı dövlət kimi tanımaq istəmirdilər. Amma Bakıda Qoşulmama Hərəkatı, onun aparıcı liderləri, Pakistanın baş naziri, bir sıra ərəb ölkələrindən gəlmiş baş nazir səviyyəsində şəxslər, birmənalı olaraq, Azərbaycana qarşı erməni işğalını tanıdılar və bununla da, dünyanın aparıcı təşkilatı olan BMT-yə çox ciddi mesaj verdilər. Onu da deyim ki, BMT baş katibinin müavini də bu tədbirdə iştirak edirdi. Tədbirdə bildirildi ki, işğal faktı tanınmalıdır və işğal faktı tanınmadıqca, işğalçı öz niyyətlərindən əl çəkməyəcək, bölgədə sabitlik, iqtisadi inkişaf təmin edilməyəcək, Ermənistanın arxasında duran və onu müxtəlif manevrlərlə müdafiə edən dövlətlərə daha bir xəbərdarlıq olunmalıdır".

"Azərbaycan Qoşulmama Hərəkatının konfransını öz ölkəsində keçirməklə arxasında necə bir gücün, ictimai rəyin dayandığını dünyaya sübut etdi" fikrini söyləyən Q.Hüseynli onu da vurğuladı ki, erməni işğalçılarının bədxah niyyətlərinin açılmasında çox güclü və səmərəli bir addım atıldı: "Zənnimcə, bundan sonra Bakının həm diplomatik manevrləri güclənəcək, həm də qismət olacaqsa, danışıqlar stolu ətrafında, qismət olmayacaqsa, başqa meydanlarda öz ərazi bütövlüyünü təmin etmək üçün daha cəsarətli və güclü siyasət aparmağa meyillənəcək. Ermənistan başa düşməlidir ki, dünya ictimai rəyində, informasiya müharibəsində uduzub. Dünya ictimai rəyi Azərbaycanın tərəfindədir. Eyni zamanda, təkcə onun işğalçı kimi BMT tərəfindən tanınması qalır. Və bu işğalçı kimi tanındıqdan sonra ona qarşı BMT-nin tədbirlər sisteminin işə salınması qalır".

### Fikrət Sadıqov: "Azərbaycanın nüfuzlu təşkilata 3 il müddətinə sədrlik etməsi diplomatik və siyasi uğurdur"

Politoloq Fikrət Sadıqov isə bildirib ki, bu, Azərbaycanın dünyadakı yüksək nüfuzundan xəbər verir: "Qoşulmama Hərəkatının dünya siyasətində, beynəlxalq münasibətlər sistemində bir sıra qərarlara təsiredici effekti olmalıdır. Qoşulmama Hərəkatı bir neçə qitədə yerləşən dövlətləri özündə birləşdirən təşkilatdır və yüksək nüfuza malikdir. Onların dünya siyasətində baş verən bir sıra proseslərə təsir gücü artıq dərəcədə effektli ola bilər".

F.Sadıqov qeyd edib ki, Azərbaycanın sözügedən təşkilata 3 illik sədrliyi zamanı bizi narahat edən, maraqlandıran bir sıra məsələlər, o cümlədən, dünya siyasətində stabillik, təhlükəsizlik, separatçılığa, terrorizmə qarşı ciddi mübarizə və digər məsələləri qeyd edə bilərik: "Artıq separatçılıq bir sıra qitələrdə müşahidə olunur və bizi də narahat edən məqamdır. Üzv dövlətlər bu istiqamətdə öz gücünü, öz effektivliyini göstərməlidirlər və göstərirlər. Artıq bir neçə qətnamələr qəbul olunub. Azərbaycanın nüfuzlu təşkilata 3 il müddətinə sədrlik etməsi diplomatik və siyasi uğurdur. Çünki Azərbaycan təşkilatın gənc üzvlərindəndir və 2011-ci ildən hərəkata qoşulub. Bu təşkilata sədrliyin Azərbaycana həvalə olunması bizim yüksək nüfuzumuzdan xəbər verir. Artıq Azərbaycana inanırlar, etimad edirlər. Bir sıra məsələlərin gündəmə qoyulmasını və həll olunmasını gözləyirlər. Azərbaycanın təşkilata sədrliyi dövründə görülən işlər daha da effektli olacaq. Ölkəmizin nüfuzu qalxacaq".

Beləliklə, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində həyata keçirilir. Məhz əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, Zirvə görüşündə də Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri və Ermənistanın işğalçılıq siyasətini dünyaya çatdırmaq üçün daim beynəlxalq tribunalardan öz kəskin, qətiyyətli mövqeyini ifadə etməsinin nəticəsidir ki, bu mötəbər görüşdə 120 ölkənin rəhbərləri Ermənistanı işğalçı dövlət kimi tanıdılar. Bir sözlə, hər dəfə olduğu kimi, bu mötəbər Zirvə görüşündə də Prezident İlham Əliyevin düşünülmüş diplomatik siyasəti qarşısında Ermənistan iqtidarı bir daha məğlubiyyətini aldı.

**RƏFİQƏ HÜSEYNOVA**

# Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi Azərbaycanın növbəti mühüm diplomatik nailiyyətidir

*YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi*

***- Siyavuş müəllim, Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə - Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə uğurla ev sahibliyi etdi. Qoşulmama Hərəkatının müasir beynəlxalq münasibətlər sistemində yerinə və roluna, eləcə də XVIII Zirvə Görüşünün Azərbaycanda keçirilməsinin əhəmiyyətinə dair fikirlərinizi bilmək istərdik.***

- Əvvəlcə qeyd edim ki, Azərbaycan mütəmadi olaraq nüfuzlu beynəlxalq tədbirlərə müvəffəqiyyətlə ev sahibliyi edir, ölkəmizdə regional və qlobal əhəmiyyətli məsələlər, geoiqtisadi və geosiyasi proseslər xüsusi müzakirə predmetinə çevrilir. Bu, hər şeydən əvvəl onu göstərir ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış edir. Təbii ki, bütün bunlar təsadüfi xarakter daşımır. Respublikamızda nüfuzlu idman, mədəniyyət tədbirlərinin humanitar forumların, mühüm beynəlxalq görüşlərin keçirilməsini şərtləndirən bir sıra strateji faktorlar mövcuddur. Birincisi, Azərbaycan yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malikdir. Dünyada böyük etimad qazanan ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. İkincisi, Azərbaycan regional və qlobal təhlükəsizliyə fundamental töhfələr verir, beynəlxalq miqyasda əməkdaşlığın dərinləşməsində və inteqrasiyanın intensiv xarakter daşımasında mühüm rol oynayır. Ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan transmilli enerji və nəqliyyat-kommunikasiya layihələrinin səmərəli geostrateji nəticələri bunun bariz nümunəsidir. Üçüncüsü, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətin nəticəsi kimi, Azərbaycanda etibarlı təhlükəsizlik mühiti hökm sürür, ölkəmiz sabitlik adası kimi xarakterizə olunur.

Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün keçirilməsi də Azərbaycana olan yüksək inam və etimadın əyani ifadəsidir. Bilirsiniz ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. Qoşulmama Hərəkatı özündə 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Bəllidir ki, "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə, Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.

Bəhs olunan tədbirdə çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Dövlət başçısı



bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən Qoşulmama Hərəkatının Azərbaycanın siyasətinə verdiyi dəstək kimi qiymətləndirdi.

Əminliklə söyləmək olar ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddəti uğurlu olacaq. Bəhs olunan tədbirdə vurğulandığı kimi, ölkəmiz sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

***- Zirvə Görüşündə Ermənistanın işğalçı, terrorçu siyasətinin mahiyyəti və nəticələri, eləcə də Azərbaycan həqiqətləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Eyni zamanda, Bakı Zirvə Görüşündə qəbul edilmiş yekun sənəddə Azərbaycanın ərazi bütövlüyünə birmənalı şəkildə dəstək ifadə olundu. Bununla bağlı nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hücum diplomatiyası çərçivəsində mütəmadi olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılır, Ermənistanın işğalçılıq siyasəti, erməni yalanları, tarixi faktlar və bugünkü reallıqlar əsasında ifşa edilir. Dövlətimizin başçısı mötəbər beynəlxalq tribunalarda Azərbaycanın haqq səsini dünyaya çatdırır, ölkəmizin milli maraqlarını qətiyyətlə və cəsarətlə müdafiə edir. Bəhs olunan Zirvə Görüşündə də Ermənistanın Azərbaycanın torpaqlarının 20 faizini işğal etməsi, Xocalı soyqırımı və xalqımıza qarşı digər kütləvi qətliamlar törətməsi, ölkəmizin ərazi bütövlüyünün pozulması konkret faktlar əsasında nəzərə çatdırıldı. Əlbəttə, bu cür hallar informasiya müharibəsində Azərbaycanım Ermənistan üzərində aşkar üstünlüyünün daha da möhkəmlənməsinə, erməni lobbisinin təbliğat maşınının dezinformasiya siyasətinin neytrallaşdırılmasına xidmət edir.

Oktyabrın 26-da başa çatan Zirvə Görüşündə qəbul edilən yekun sənəddə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə olundu. Dünyada BMT-dən sonra ikinci ən böyük təşkilat olan, sıralarında 120 tamhüquqlu üzv dövlət birləşən, özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi ölkəmizin növbəti mühüm diplomatik nailiyyətidir. Məlum olduğu kimi, bu zamana qədər İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul ediblər. Qoşulmama Hərəkatı da indiyə kimi qəbul olunmuş sənədlərində münaqişənin

BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə edib. Bütün bunlar, heç şübhəsiz, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində apardığı ardıcıl və sistemli fəaliyyəti qanunauyğun nəticəsidir.

***- Yeri gəlmişkən anti-Azərbaycan dairələrin direktivləri əsasında hərəkət edən radikal müxalifət Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün əhəmiyyətini azaltmaq, bu mühüm beynəlxalq tədbirin üzərinə kölgə salmaq üçün həqiqətə uyğun olmayan fikirlər səsləndirir, ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır...***

- Antimilli və marginal qruplar növbəti dəfə Azərbaycan dövlətinin milli maraqlarına, xalqın mövqeyinə zidd mövqedən çıxış edirlər. Diqqət yetirsəniz, görərsiniz ki, işğalçı Ermənistan, erməni lobbisi və bir sıra anti-Azərbaycan dairələr bu tədbirlə əlaqədar qərəzli və neqativ məzmunlu informasiyalar dövriyyəyə buraxır, Azərbaycana qarşı "qara piar" kampaniyası aparırlar. Ölkəmizdəki "beşinci Kolon"un nümayəndələri də eyni tezisləri ifadə edir, bu isə bir daha radikal müxalifətin ermənipərəst qüvvələrlə sinxron hərəkət etdiyini göstərir.

Azərbaycanın beyməlxalq dialoq və əməkdaşlıq məkanı kimi mötəbər tədbirə ev sahibliyi etməsini, dünyanın diqqətinin Azərbaycanda olmasını, Ermənistanın işğalçılıq siyasətinin növbəti dəfə ifşa edilməsini, Zirvə Görüşündə ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə olunmasını tənqid obyektinə çevirməyin, bütün bu müsbət reallıqları neqativ məzmunda ictimai rəyə təqdim etməyin bir adı var: Azərbaycanın milli maraqlarına xəyanət və Ermənistanın mövqeyini müdafiə etmək. Bax budur radikal müxalifətin antimilli mahiyyəti!

Şübhəsiz ki, Azərbaycan xalqı dağıdıcı müxalifətin dövlətin maraqlarına, xalqın mənafeyinə zidd mövqeyini ciddi etirazla və hiddətlə qarşılayır.

Ümumiyyətlə, qanunsuz aksiya, mitinq çağırışları ilə ölkədə sabitliyi, təhlükəsizliyi pozmağa çalışan radikal düşərgənin məqsədi vətəndaşla dövlət arasında etimadsızlıq mühiti yaratmaq, Azərbaycanın müsbət beynəlxalq imicinin üzərinə kölgə salmaqdır. Lakin xalqdan dəstək almayan marginal qrupların bu cür əməlləri hər zaman iflasa məhkumdur, çünki Azərbaycan xalqı ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti tam dəstəkləyir, ölkəmizin inkişafına və xalqımızın firavan gələcəyinə xidmət edən bu siyasətə alternativ görmür.

## "İndiyədək 4 765 nəfər namizədliyini irəli sürüb"



"Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində iştirak etmək üçün indiyədək 4 765 nəfər namizədliyini irəli sürüb".

SİA-nın verdiyi məlumata görə, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib. M.Pənahov qeyd edib ki, bunların 65 faizi kişi, 35 faizi isə qadındır: "Bunların 80 faizi ali təhsillidir. Azərbaycanda bələdiyyə seçkilərində iştirak etmək istəyən namizədlərə lazımi şərait yaradılıb".

## MSK YAP-ın səlahiyyətli nümayəndələrini qeydə alıb



Mərkəzi Seçki Komissiyasının (MSK) dünən keçirilən iclasında dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində üç siyasi partiyanın səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. SİA-nın verdiyi məlumata görə, iclasda Yeni Azərbaycan Partiyasının (YAP), Demokratik İslahatlar Siyasi Partiyasının, Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələri qeydə alınıb.

## DSX: Azərbaycanda axtarışda olan Gürcüstan vətəndaşı dövlət sərhədini pozarkən saxlanılıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 17-də Qax rayonu Üzümlü kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərərkən Gürcüstan vətəndaşı Qoqiçaişvili Davit Quramoviç saxlanılıb.

İlkin araşdırma zamanı sərhəd pozucusunun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə istintaq olunan cinayət işi üzrə şübhəli şəxs qismində axtarışda olması müəyyənləşdirilib. Həmin tarixdə "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələrkən Azərbaycan vətəndaşı 1989-cu il təvəllüdlü Kişizadə Qabil Mirəhməd oğlunun üzərinə sərhəd və gömrük baxış keçirilərkən 97 qram narkotik vasitə aşkar olunaraq götürülüb. Hər 2 fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Serblər də ermənilərin yolunu bağladı

Serbiya Ermənistan vətəndaşları üçün vizaları ləğv edib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Serbiya hökuməti təsdiq edib.

Məlumatda qeyd olunur ki, Serbiya hökuməti Ermənistan vətəndaşları üçün vizaların ləğvi və İrəvanda səfirlik açılması barədə qərarı təsdiqləyib. Təsdiq olunub ki, tezliklə İrəvanda Serbiya səfirliyi də açılacaqdır. Görünür, serblər ermənilərin yollarını bağlamağı tərcih edir və bu, Ermənistana qarşı növbəti taktika sayıla bilər.

# Dünya mətbuatında Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə aktual beynəlxalq məsələlərin müzakirə edildiyi ön plana çıxarılıb

***Dünya mətbuatında Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə aktual beynəlxalq məsələlərin müzakirə edildiyi ön plana çıxarılıb. Tədbirdə iştirak edən ölkələrin KİV-ləri dövlət və hökumət başçılarının çıxışlarında qlobal və regional problemlərin həlli ilə bağlı mühüm fikirlərə və təşəbbüslərə geniş yer ayırıblar.***



Malayziyanın "Bernama" xəbər agentliyi ölkənin Baş Naziri Mahathir Bin Mohamadın Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevlə görüşündə tədbirin əhəmiyyəti barədə mülahizələrinə geniş yer ayırıb. Agentliyin xəbərində, həmçinin nüfuzlu "The Himalayan Times" qəzetinin məqaləsində Baş Nazirin "Petronas" şirkətinin Azərbaycan paytaxtındakı ofisini ziyarət etməsindən, Zirvə Görüşündə çıxışından ətraflı bəhs edilir. Mahathir Bin Mohamad qeyd edib ki, 16 il əvvəl Qoşulmama Hərəkatının Zirvə Görüşü Kuala-Lumpurda keçirilib, Bakı isə bu əhəmiyyətli siyasi platformanı davam etdirərək təşkilata sədrlik edəcək.

Pakistanın "Daily Pakistan", "The Nation", "Daily Times" qəzetlərində bu ölkənin Prezidenti Arif Alvinin Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşü, həmçinin onun Zirvə Görüşündəki çıxışına geniş yer verilib. Qeyd olunub ki, Pakistanın dövlət başçısının çıxışında Kəşmir məsələsi, Əfqanıstanda sülhün və sabitliyin bərqərar olması, habelə Yaxın Şərq problemi öz əksini tapıb, həmçinin regional münaqişələrin nizamlanmasında və qlobal məsələlərin həllində Qoşulmama Hərəkatının rolunun artırılmasının zəruriliyi vurğulanıb.

Kubanın ACN agentliyi ölkə Prezidenti Migel Diaz-Kanelin Zirvə Görüşündə iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, həmçinin onun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarəti, UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda gəzintisi barədə geniş reportaj yayıb. "Radio Habana" radiosunun saytında isə Bakıda keçirilən tədbirin əhəmiyyətindən bəhs olunur və Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçildiyi vurğulanır. Nepalın "DD News" və "The Rising Nepal" saytlarında da Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşü barədə videomateriallar yerləşdirilib. Bu ölkənin KİV-ləri Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, tədbirdə çıxışı haqqında dərc etdikləri materiallarda AZƏRTAC-ın xəbərlərinə də istinad ediblər. Qeyd olunub ki, Azərbaycan paytaxtında dünyanın 60-a yaxın ölkəsinin dövlət və hökumət başçılarının apardıqları müzakirələr qlobal və regional problemlərin həlli yollarının axtarılması baxımından böyük əhəmiyyət kəsb edir.

Hindistanın "The Times of India" nəşri, PTI agentliyi bu ölkənin vitse-prezidenti Muppavarapu Venkaiah Naidunun başçılıq etdiyi nümayəndə heyətinin Zirvə Görüşündə iştirakını geniş şəkildə işıqlandırıb. Qeyd olunub ki, rəsmi Dehli Qoşulmama Hərəkatına böyük əhəmiyyət verir və onun fəaliyyətində yaxından iştirak edir. "Rajya Sabha" və NDTV telekanallarında isə tədbirlə bağlı reportajlar yayımlanıb.

Əfqanıstanın "Tolo News" telekanalı və eyniadlı informasiya agentliyi bu ölkənin Prezidenti Məhəmməd Əşrəf Qaninin Azərbaycanın dövlət başçısı ilə görüşü və onun Zirvə Görüşündə iştirakı barədə reportajlar yayıb. Qeyd olunub ki, əfqan liderin çıxışında dünyada siyasi və hərbi alyansların planları fonunda Qoşulmama Hərəkatının neytral və ədalətli mövqeyinin xalqların və ölkələrin suverenliyinin və ərazi bütövlüyünün təmin olunması kontekstində xüsusi əhəmiyyətə malik olduğu vurğulanıb.

Banqladeşin BSS agentliyi Qoşulmama Hərəkatının Zirvə Görüşü çərçivəsində ölkənin Baş Naziri Şeyx Hasinanın tədbir çərçivəsində Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşü, tədbirdə çıxışı haqqında xəbər yayıb. Küveytin KUNA, Namibiyanın NAMPA, Liviyanın LANA, Misirin MENA, Mərakeşin "African-bulletin", Eritreyanın "Tesfa", İndoneziyanın "Antara", Banqladeşin UNB, Şri-Lankanın "Lanka Page" agentlikləri və bir çox nəşrlər və internet portalları öz ölkələrinin nümayəndə heyətlərinin Qoşulmama Hərəkatının XVIII Bakı Zirvə Görüşündə iştirakı barədə geniş xəbərlər yayıblar. Bundan başqa, tədbirdə iştirak edən dövlət və hökumət başçılarının, habelə yüksəkvəzifəli nümayəndələrin sosial şəbəkələrdəki səhifələrində də Zirvə Görüşü haqqında məlumatlar və fotoşəkillər yerləşdirilib.

# Azərbaycan Fransaya etiraz notası verdi!

***Oktyabrın 28-də Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qross Xarici İşlər Nazirliyinə çağırılıb və onunla Xarici İşlər nazirinin müavini Xələf Xələfov görüş keçirib.***



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Fransa səfirinə bu ölkənin Overn-Ron-Alplar Regional Şurasının sədri Loran Vokyenin ötən həftə Yerevana etdiyi səfər zamanı Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılan qondarma qurumun "xarici işlər naziri" Masis Mayılyan ilə görüşərək onunla "birgə bəyannamə" imzalaması ilə bağlı etiraz notası təqdim edilib.

Bəyanatda əksini tapmış çağırışlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə zərbə vurur və onun formatının dəyişdirilməsinə dair işğalçı Ermənistanın mövqeyinə dəstək ifadə edir.

Fransa Respublikasının inzibati məhkəmələrinin bu ölkənin bir sıra bələdiyyə və regional qurumlarının Azərbaycanın işğal olunmuş ərazilərindəki "hakimiyyət qurumları" ilə imzalanan qeyri-qanuni "saziş"lərin ləğv olunmasına dair qərarlar qəbul etməsi fonunda bu cür "birgə bəyannamə"nin imzalanması həm də Fransadakı erməni lobbisinin təxribatçı səyləri nəticəsində baş verir.

Avropa İttifaqının aparıcı ölkələrindən və ATƏT-in Minsk qrupunun həmsədri olan Fransada yerli və regional hakimiyyət orqanları tərəfindən bu cür qanunsuz "sənədlər"in imzalanmasının davam etdirilməsi bu dövlətin qərəzsiz vasitəçilik roluna kölgə saldığı və Aİ-nin digər üzv ölkələrinə mənfi nümunə olduğu Fransa diplomatına qəti şəkildə bildirilib.

Fransa səfirinin diqqəti bu arzuolunmayan tendensiyalara yönəldilərək, ondan ölkəsinin Xarici İşlər Nazirliyinin məsələyə müdaxilə etməsi və Azərbaycan tərəfinə izahat verilməsi istənilib. Səfir Z.Qross, öz növbəsində, yerli və bələdiyyə orqanlarının bu kimi çıxışlarının heç bir hüquqi qüvvəyə malik olmadığını və Fransa hökumətinin mövqeyini əks etdirmədiyini bildirib. Diplomat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Fransa dövlətinin mövqeyinin prinsipial və dəyişməz olduğunu vurğulayıb. Fransa səfiri L.Vokyenin Yerevana səfər proqramının Fransa hökuməti tərəfindən dəstəklənmədiyini, onun qondarma qurumun nümayəndəsi ilə görüşünün səfərin rəsmi hissəsi bitdikdən sonra baş verdiyini və bu zaman Fransanın Yerevandakı səfirinin təmsil olunmadığını bildirib.

# Hikmət Hacıyev: "Əminik ki, Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edəcək"

Azərbaycan Respublikası Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi edir. Ölkəmiz bu quruma 2011-ci ildə üzv olmasına baxmayaraq, az müddət ərzində böyük hörmət və nüfuz qazana bilib. Məhz bu səbəbdən 2018-ci ildə üzv dövlətlərin yekdil rəyi ilə XVIII Zirvə Görüşünün ölkəmizdə keçirilməsinə qərar verilib. Qoşulmama Hərəkatının (QH) üzv dövlətləri Azərbaycana etimad göstərərək 2019-2022-ci illərdə də təşkilata sədrliyi Azərbaycana həvalə ediblər.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Zirvə Görüşünün proqramına uyğun olaraq Venesuela Prezidenti sədrliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təhvil verdi. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının sədrliyi missiyasını yerinə yetirərək Azərbaycan Respublikasının mövqeyini əks etdirən geniş və məzmunlu nitq söylədi. Prezident öz nitqində Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyində prioritetləri və bu hərəkat çərçivəsində əməkdaşlıq, həmçinin ölkəmizin inkişafı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə rolundan danışdı, Bandunq Prinsiplərinin Azərbaycanın Hərəkata sədrliyinin əsas təməl prinsiplərini təşkil edəcəyini vurğuladı.

"Tarixi Bandunq Prinsiplərinin bünövrəsində dövlətlərin ərazi bütövlüyü, suverenlik, dövlətlərin və xalqların bir-biri ilə qarşılıqlı hörmət prinsipləri əsasında yaşaması, bir-birinin daxili işlərinə qarışmaması kimi meyarlar dayanır. Dövlətimizin başçısı vurğuladı ki, məhz bu prinsiplər Azərbaycan Respublikasının məramının özəyini təşkil edir və ölkəmizin xarici siyasətini əks etdirir. Azərbaycan beynəlxalq münasibətlərdə məhz bu məqsədləri, məramları təşviq edir. Ona görə də ölkəmiz quruma sədrliyi dövründə Bandunq Prinsiplərinin təşviq edilərək güclənməsinə səy göstərəcək. Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlətimizin konkret mövqeyini, Azərbaycanın uğurlu inkişaf modelini faktlar və rəqəmlərlə auditoriyanın diqqətinə çatdırdı. Dövlətimizin başçısı öz nitqində ölkəmizin ərazi bütövlüyünün pozulması, Ermənistanın gücdən istifadə edərək ərazilərimizi işğal altında saxlaması, Xocalı soyqırımı, mülki Azərbaycan əhalisinə qarşı törədilən etnik təmizləmə və işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyəti, eləcə də beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünün və suverenliyini dəstəkləməsi barədə faktları diqqətə çatdırdı. Prezident İlham Əliyev bir məqamı xüsusilə vurğuladı ki, beynəlxalq ictimaiyyət deyəndə bir qrup ölkə və ya dövlətdən söhbət getmir. Beynəlxalq ictimaiyyət elə Qoşulmama Hərəkatının özü deməkdir. Dünyanın 120 dövlətinin nümayəndəsi burada iştirak edir və ümumilikdə 2300-dən çox qonaq var. Bakı Zirvə Görüşündə çoxsaylı ölkələrin dövlət başçıları və digər yüksək vəzifəli şəxslər iştirak edir və öz ölkələrinin problemlərini ortaya qoyurlar. Bütün bunlar onu göstərir ki, beynəlxalq ictimaiyyətin mövqeyinin hərtərəfli şəkildə dinlənilməsi və Hərəkata üzv dövlətlər arasında həmrəyliyin, qarşılıqlı dəstəyin inkişaf etdirilməsinə xüsusi ehtiyac var", - deyə Prezident Administrasiyasının şöbə müdiri bildirib.



Sammitdə Qoşulmama Hərəkatı və BMT-nin gündəliyində olan məsələlərin bir-biri ilə sinxronluq təşkil etdiyini diqqətə çatdıran Hikmət Hacıyev qeyd edib ki, Zirvə Görüşünün xarakterik xüsusiyyətlərindən biri də Azərbaycanın uğurlu gənclər siyasətindən çıxış edərək ilk dəfə bu Hərəkat çərçivəsində Gənclər Sammitinə ev sahibliyi etməsidir. Azərbaycan təşkilata sədrliyi dövründə gənclər siyasətinə xüsusi önəm verəcək. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan müxtəlif beynəlxalq təşkilatların üzvüdür. Ölkəmiz üzv olduğu digər beynəlxalq və regional təşkilatların Qoşulmama Hərəkatı ilə əməkdaşlığının möhkəmləndirilməsində öz töhfəsini əsirgəməyəcək. Azərbaycan Respublikası sivilizasiyalar və mədəniyyətlərarası dialoqda fəal iştirak edən dövlətdir. Onun sədrliyi dövründə bu məramlar da diqqətdə saxlanılacaq.

"Sammitin sonunda mühüm sənəd imzalanacaq ki, burada Bakı görüşünün nəticələri öz əksini tapacaq. Bu, Zirvə Görüşünün konkret məqsədə, məramlara xidmət etməsini göstərən yekun sənəd olacaq. Burada beynəlxalq ictimaiyyəti və Azərbaycanı narahat edən məsələlər öz əksini tapacaq. Yekunda dörd sənəd qəbul ediləcək. Azərbaycan sədrlik funksiyasını yerinə yetirərək kompromislər əsasında konsensusun tapılması, toplantıda aparılan müzakirələrin sənədlərə daşınmasına öz töhfəsini verəcək. İlk növbədə, söhbət Bakı Bəyannaməsindən gedir. Bu, yığcam sənəddə prioritetlər öz əksini tapacaq. İkinci sənəd Bakı Zirvə toplantısının nəticələrini ehtiva edir. Fələstinlə bağlı ayrıca sənəd qəbul ediləcək. Təşkilatda məhz Fələstin problemi ilə bağlı xüsusi komitə fəaliyyət göstərir. Müzakirələrin yekununda daha bir sənəd imzalanacaq. Belə ki, Qoşulmama Hərəkatının üzvü olan 120 dövlət, o cümlədən Sammitdə iştirak edən müşahidəçi dövlətlər, beynəlxalq təşkilatlar, xüsusi qonaqlar tədbirin yüksək səviyyədə təşkilinə, eləcə də 2019-2022-ci illərdə təsisata sədrlik kimi məsuliyyətli funksiyanı öz üzərinə götürdüyünə görə Azərbaycan dövlətinə və xalqına təşəkkür sənədi imzalayacaq. Yekunda dörd əsas sənədin qəbul olunması Azərbaycanın ev sahibliyi etdiyi Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün səmərəliliyindən xəbər verir", - deyə Hikmət Hacıyev vurğulayıb.

O, həmçinin əlavə edib ki, sammitin başa çatması təsisata sədr kimi Azərbaycan üçün yeni və məsuliyyətli dövrün başlaması deməkdir. Çünki Qoşulmama Hərəkatına sədrlik böyük siyasi iradə, məsuliyyət, diplomatik güc və imkanlar tələb edir. 2019-2022-ci illərdə bu çərçivədə müzakirə olunan prioritet məsələlərin həlli üçün bacarıqlar ortaya qoyulacaq. Əminik ki, Azərbaycan Respublikası dövlətimizin başçısının rəhbərliyi ilə xüsusi diplomatik bacarıq və məharət nümayiş etdirərək bu missiyanın da öhdəsindən layiqincə gələcək və Qoşulmama Hərəkatına uğurla sədrlik edəcək.

## Səməd Seyidov: "Qoşulmama Hərəkatının zirvə görüşü işğalçı Ermənistana böyük zərbə oldu"



Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə uğurla ev sahibliyi etməsi və növbəti üç il ərzində BMT-dən sonra öz sıralarında dünyanın ən çox ölkəsini birləşdirən bu təşkilata sədrliyi öz üzərinə götürməsi ölkəmizin tarixi bir uğurudur. Bunu Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib. S.Seyidov bildirib ki, Yer kürəsində yaşayan insanların 50 faizindən çoxu Qoşulmama Hərəkatının üzv ölkələrində yaşayır: "Ona görə də, Azərbaycanın növbəti 3 il müddətində bu təşkilata rəhbərlik etməsi mühüm əhəmiyyət kəsb edir. Birincisi, belə bir böyük təşkilata sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun, ölkəmizə olan etimadın artmasının daha bir göstəricisidir. Digər tərəfdən, təşkilata daxil olan dövlətlərin hamısının Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını dəstəkləməsi, Azərbaycanın qaçqın və məcburi köçkünlərinin öz tarixi torpaqlarına qayıtmasının vacibliyini vurğulaması, Azərbaycanın dünyada artan nüfuzunu təsdiq etməsi özü-özlüyündə tarixi bir faktdır və Azərbaycanın böyük uğurudur".

Komitə sədri vurğulayıb ki, Zirvə Görüşünün nəticəsi kimi qəbul edilən sənədləri Azərbaycanın ciddi diplomatik uğuru hesab etmək olar: "Bu sənədlərdə hərəkata üzv olan bütün ölkələr birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsini dəstəklədi.

Dövlət və Hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, münaqişənin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirdi. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipini yenidən təsdiqlədilər və tərəfləri münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında danışıqlar yolu ilə həll olunmasına ruhlandırdılar".

S.Seyidov qeyd edib ki, Azərbaycanın Zirvə toplantısına bu cür uğurla ev sahibliyi etməsi, həmçinin, işğalçı Ermənistana böyük bir zərbədir: "Nəzərə alsaq ki, Qoşulmama Hərəkatının Zirvə Görüşündə müzakirə edilən məsələlər sonradan BMT-də qaldırılır, Azərbaycan Ermənistanın işğalçı siyasətini bir daha beynəlxalq tribunadan ifşa etmiş olur. Çünki faktiki olaraq Qoşulmama Hərəkatına üzv olan bütün ölkələr Ermənistanı işğalçı ölkə kimi tanıdılar".

Milli Məclisin deputatı əlavə edib ki, həm bu Zirvə Görüşündə, həm də ümumiyyətlə son ay yarım ərzində Prezident İlham Əliyevin "Valday" forumundan başlamış, ondan sonra Aşqabadda MDB rəhbərlərinin sammitində, daha sonra Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yeddinci sammitində gətirdiyi dəlillər və ümumiyyətlə, dünya səviyyəsində apardığı işlər Azərbaycanın beynəlxalq münasibətlərini və xarici siyasətini tamamilə yeni bir müstəviyə qaldırıb.

## Brüsseldə Azərbaycan və ABŞ Müdafiə nazirlərinin görüşü olub



NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində Brüssel şəhərində keçirilmiş toplantısı çərçivəsində ABŞ tərəfinin təşəbbüsü ilə ABŞ Müdafiə naziri Mark Esper ilə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında görüş keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan ilə ABŞ arasında ikitərəfli və NATO çərçivəsində hərbi əlaqələrin inkişaf perspektivlərini, o cümlədən hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsini, eləcə də regional və qlobal təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Görüşdə, həmçinin sülhməramlılarımızın NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasında iştirakı barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Bu tarixi hadisə Azərbaycanın növbəti parlaq diplomatik uğuru kimi qiymətləndirilməlidir

*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

***- Sevinc xanım, məlum olduğu kimi, Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü keçirildi. Eyni zamanda, Azərbaycan bu mötəbər təşkilata sədr seçildi. Bu hadisəni necə dəyərləndirirsiniz?***

- Bildiyiniz kimi, Qoşulmama Hərəkatı BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatdır. Bu gün dünya əhalisinin təxminən 55 faizi Qoşulmama Hərəkatına üzv ölkələrdə yaşayır. Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün keçirilməsi tarixi hadisədir. "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Ümumilikdə Zirvə Görüşünə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri qatılmışdı.

Qeyd edim ki, Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan Qoşulmama Hərəkatı özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən konfrans zamanı qəbul edilib.

Azərbaycan Respublikası da 2011-ci il mayın 26-da Qoşulmama Hərəkatına üzv ölkələrin yekdil dəstəyini əldə edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlif səviyyəli iclas və konfranslarında iştirak etmək və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla onun məqsəd və prinsiplərinə öz töhfəsini verir.

Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunub. Hərəkata üzvlük, həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunması və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıb.

XVIII Zirvə Görüşünə ev sahibliyi edən Azərbaycan Respublikası 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcək. Təbii ki, bu tarixi hadisə Azərbaycanın növbəti parlaq diplomatik uğuru kimi qiymətləndirilməlidir.



Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev dərin məzmunlu çıxış etdi. Dövlətimizin başçısı çıxışında ölkəmizin inkişafı, qazanılan uğurlar, eləcə də dünyada baş verən proseslərlə bağlı fikirlərini bildirdi. Eyni zamanda, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini bir daha bu yüksək tribunadan dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlətimizin başçısı vurğulayıb: "Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir".

Prezident İlham Əliyev nitqində Azərbaycanın dünya ölkələri ilə sosial, iqtisadi, o cümlədən humanitar əməkdaşlıq məsələlərinə də önəm verdiyini diqqətə çatdırıb: "2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərmişdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə layihələr həyata keçirir". Hesab edirəm ki, bu fakt kifayət qədər önəmlidir.

Mötəbər tədbirdə digər ölkələrin də dövlət və hökumət başçıları dünyanı düşündürən, narahat edən problemlərdən danışdılar, bundan çıxış yolları haqqında fikirlərini bildirdilər. Xüsusilə, Azərbaycana bu mötəbər tədbiri yüksək səviyyədə təşkil etdiyinə görə təşəkkür edildi. Hesab edirəm ki, Zirvə Görüşündə aparılan müzakirələr, qəbul olunan qərarlar dünyada sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına öz töhfəsini verəcək.

***- Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsinin və Azərbaycanın quruma sədr seçilməsinin əsasında hansı amillər dayanır?***

- Hər bir ölkənin daxili və xarici siyasətindəki uğur məhz həmin ölkənin dövlət başçısının fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu gün Azərbaycan Ümummilli Lider Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu milli inkişaf strategiyası nəticəsində möhtəşəm nailiyyətlər qazanır. Bu nailiyyətlərin qazanılmasının digər bir mühüm səbəbi isə Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasi kursun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Ötən dövr ərzində Azərbaycanda bütün sahələrdə inkişaf prosesləri baş verib. Bu baxımdan xarici siyasət kursu da uğurla həyata keçirilib və dövlət və milli maraqlarımızı tam təmin edilib. Regionun aparıcı dövləti olan Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla hərtərəfli münasibətlərin inkişaf etdirilməsinə xüsusi önəm verir. Prezident İlham Əliyevin praqmatik xarici siyasəti nəticəsində ölkəmiz dünyanın yeganə qlobal təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu orqanına - Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyini qazanaraq qeyri-daimi üzvü olub. Bu da ölkəmizin milli maraqlarını beynəlxalq arenada layiqincə təmsil edilməsinə tarixi şərait yaradıb. Müstəqil Azərbaycan özünün xarici siyasət prinsiplərinə əsaslanaraq, qonşu dövlətlərlə dostluq münasibətlərini qoruyur və onlara qarşı bitərəf siyasətini saxlayır.

Xarici siyasətimizin digər prioritet istiqaməti olan beynəlxalq iqtisadi münasibətlərdə Prezident İlham Əliyev tərəfindən davamlı müstəqil və sabit siyasət yürüdülməsi nəticəsində enerji resurslarının dünya bazarına çıxarılmasına, həm enerji resurslarının nəqli üzrə geostrateji əhəmiyyətə malik dəhliz, həm də Avropa ölkələrinin enerji təminatında etibarlı tərəfdaş kimi Azərbaycanın beynəlxalq aləmdə qəbul edilməsinə şərait yaranıb. Bu gün bir çox Avropa rəsmiləri qitənin enerji təhlükəsizliyinin təmin edilməsi və enerji resurslarının şaxələndirilməsində Azərbaycanı vacib ölkə hesab edirlər. Bütün bunlar beynəlxalq aləmdə Azərbaycana və onun Prezidentinə verilən ən yüksək siyasi qiymətdən xəbər verir.

Beynəlxalq körpü rolu oynayan ölkəmiz üçün digər mühüm prioritet nəqliyyatdır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycan Avrasiyada aparıcı nəqliyyat qovşaqlarından birinə çevrilmək istiqamətində öz coğrafi mövqeyindən müdrikcəsinə istifadə edir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı və Avropanı birləşdirəcək yeganə qısa və alternativ bir nəqliyyat marşrutu olmaqla yanaşı, Prezidentimizin də dediyi kimi, iqtisadi və siyasi əhəmiyyətinə görə Afrika ilə Asiyanı birləşdirən Süveyş kanalı kimi titanik layihələrlə müqayisə oluna bilər. Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənən bu layihənin reallığa çevrilməsi məhz

# Bu tarixi hadisə Azərbaycanın növbəti parlaq diplomatik uğuru kimi qiymətləndirilməlidir

*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyevanın yap.org.az-a müsahibəsi*

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və böyük əməyi sayəsində mümkün olub. Bu əməyin nəticəsidir ki, Azərbaycan beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrilib.

Xəzər dənizin hüquqi statusu ilə əlaqədar sənədin imzalanması Azərbaycanın dünyada regional və beynəlxalq səviyyədə ticarət əlaqələrinin inkişaf etdirilməsinə zəmin yaradıb, ölkəmizin qitələr və sivilizasiyalar arasındakı əhəmiyyətini daha da möhkəmləndirib. Prezidenti İlham Əliyev sənədin siyasi və iqtisadi əhəmiyyətinə toxunaraq Xəzər dənizini əməkdaşlıq, sülh və dostluq dənizi adlandırıb. Əlbəttə ki, Prezidentimizin beynəlxalq tədbirlərə üstünlük verməsi, yeni-yeni təşəbbüslər irəli sürməsi, ümumilikdə xarici siyasətimizdə nailiyyətlərin əldə olunması onun uzaqgörən siyasətinin, diplomatik savadının və innovativ düşüncəsinin əyani sübutudur.

Yəni, Azərbaycan beynəlxalq müstəvidə çox uğurlu siyasət həyata keçirir ki, bu da ölkəmizin dünyada nüfuzunu əhəmiyyətli dərəcədə artırır. Qoşulmama Hərəkatının Zirvə Görüşünün Bakıda keçirilməsi və növbəti mərhələdə təşkilata sədr seçilməsi də ölkəmizin uğurlu xarici siyasətinin və dünyada artan nüfuzunun parlaq ifadəsidir.

***- Sevinc xanım, Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün yekununda qəbul olunan sənədlərin əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

- Təşkilatın Bakıda keçirilən XVIII Zirvə Görüşü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilmiş sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirir və onun Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.

Yekun Sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Zirvə Görüşündə qəbul edilmiş sənədlər Azərbaycanın qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviq olunması sahəsində nümayiş etdirdiyi liderliyi yüksək qiymətləndirir.

Yekun Sənəddə dövlət və hökumət başçıları nasist hərəkatının, neonasizmin və Vaffen SS təşkilatının keçmiş üzvlərinin, onlara abidə və heykəllərin ucaldılması, nasist keçmişi, nasist hərəkatı və neonasizmin qəhrəmanlaşdırılması naminə ictimai nümayişlərin keçirilməsi, eləcə də anti-Hitler koalisiyasına qarşı döyüşmüş və nasist hərəkatının iştirakçıları ilə iş birliyi etmiş şəxslərin milli azadlıq hərəkatının iştirakçıları kimi qələmə verilməsi daxil olmaqla, hər hansı bir formada qəhrəmanlaşdırılmasını qınadılar. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş Sammitində Ermənistanda Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi fikirlərə beynəlxalq səviyyədə verilən dəstəyin göstəricisidir.

Yekunda qəbul olunmuş Bakı Bəyannaməsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi səylərinə ciddi dəstək ifadə olunub: "Biz, dövlət və hökumət başçıları Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə möhkəm dəstəyimizi ifadə edirik və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi ilə bağlı səyləri ilə həmrəyliyimizi ifadə edirik".

Ermənistan və onun havadarlarının dəridən-qabıqdan çıxmasına baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atdı, 120 dövlətin təmsil olunduğu Zirvə Görüşünün nəticəsində Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail oldu.

Yekun Sənəddə deyilir: "Üzv ölkələrin dövlət və hökumət başçıları Azərbaycan Respublikasının təşəbbüsü ilə Qoşulmama Hərəkatının Bakı Sammiti çərçivəsində oktyabrın 24-25-də ilk dəfə olaraq Qoşulmama Hərəkatı Gənclər Sammitinin təşkil olunmasını alqışlayır və dayanıqlı tərəqqinin təmin edilməsi sahəsində çağırışlar barədə və onların cavablandırılmasına yönəlmiş birgə səylərə dair üzv dövlətlərin gəncləri arasında fikir mübadiləsinin aparılmasına imkan yaradan Gənclər Şəbəkəsinin yaradılmasını dəstəkləyirlər".

Dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirdilər. Onlar BMT Nizamnaməsində öz əksini tapmış gücdən istifadə etməmək prinsipini yenidən təsdiqlədilər və tərəfləri münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında danışıqlar yolu ilə həll olunmasına ruhlandırdılar.

***- Sizcə, ölkəmizin bu mötəbər təşkilata sədrlik etməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nə dərəcədə müsbət təsir edəcək?***

- Bilirsiniz ki, Azərbaycanın xarici siyasətinin əsas prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaqdan ibarətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət nəticəsində diplomatik cəbhədə əhəmiyyətli uğurlar əldə edilib. Azərbaycan tərəfi münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda siyasi iradə nümayiş etdirərək bu problemin nizamlanması yolunda konstruktiv mövqe sərgiləyib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizin qarşıya qoyduğu ən prioritet məsələdir. Ermənistanın hərbi təcavüzü səbəbindən meydana çıxan bu münaqişə nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və yeddi ətraf rayon işğal edilib, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub. Azərbaycan münaqişənin beynəlxalq hüququn normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Danışıqlar prosesində ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi, hərbi sahələrdə işğalçı Ermənistan üzərində üstünlüyə nail olub.

Ölkənin ərazi bütövlüyü məsələsində də respublika rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi Ermənistan və bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Azərbaycan yeni hakimiyyətdən düzgün qərarlar gözləyirdi. Təəssüf ki, ötən dövr ərzində yeni hakimiyyət münaqişənin həlli ilə bağlı konstruktiv mövqe ortaya qoymayıb, əksinə ziddiyyətli bəyanatlar verməklə məşğul olub.

Bütün hallarda Azərbaycanın mövqeyi qəti və birmənalıdır: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalı, Ermənistan qoşunları ölkəmizin işğal olunmuş ərazilərindən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır. Düşünürəm ki, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində münaqişənin diplomatik yolla həlli istiqamətində səylərini daha da gücləndirəcək, işğalçı Ermənistanın təcavüzkar mahiyyətini ifşa etmək siyasətini daha da gücləndirəcək.

## Yeni Azərbaycan Partiyasının Siyasət Akademiyasının ikinci kursu keçirilib







Oktyabrın 26-da Yeni Azərbaycan Partiyasının Siyasət Akademiyası "Yeni Azərbaycan Partiyası və dövlət-din münasibətləri " mövzusunda ikinci kurs təşkil edib. Məruzə ilə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlı çıxışında dövlət-din münasibətlərinin dünyadakı modelləri, sovet dövründə İslam dininə yanaşma, müstəqilliyin bərpasından sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərə qayıdışı prosesi, İslam dininin ideoloji cəhətdən zəiflədilməsi hərəkatı kimi məsələlərə toxunub, tolerantlıq anlayışı, multikultural dəyərlər, komitənin dini maarifləndirmə istiqamətində gördüyü işlər haqqında məlumat verib. Komitə sədri qeyd edib: "Azərbaycan unitar, hüquqi, demokratik və dünyəvi dövlətdir. Dünyəvilik konstitusiyada öz əksini tapıb və ölkədə dövlət-din münasibətləri yüksək səviyyədə təşkil olunub". Bununla yanaşı Azərbaycanda "Dini etiqad azadlığı" haqqında qanun da qəbul edilib. İstənilən dini icmanın azad fəaliyyətinə tam şərait yaradılıb ki, bu da Azərbaycanı tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəldir.

Mübariz Qurbanlı bildirib ki, Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Prezident İlham Əliyevin Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında imzaladığı sərəncam və digər faktlar ölkədə dövlət-din münasibətlərinin sağlam təməllər üzərində quruluduğunu deməyə əsas verir: "Prezident İlham Əliyevin din sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri beynəlxalq hüquq normalarına uyğun tənzimlənir, dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir, ölkədəki tolerantlıq mühiti qorunub saxlanılır. Azərbaycanın dini tolerantlıq modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur". Onun sözlərinə görə, mövcud mürəkkəb geosiyasi durumda bu uğurları daha da genişləndirmək və tarixin ən möhtəşəm Azərbaycanını qurmaq kimi çətin, şərəfli vəzifəyə nail olmaq Prezident İlham Əliyevin həqiqətən də görkəmli dövlət xadimi və qüdrətli lider olduğuna əyani sübutdur: "Dövləti idarə etmək yəqin ki, siyasi bir şansdır və bu fürsətə təsadüfi adamlar da yiyələnə bilər. Ən azından elə ölkəmizin siyasi tarixi bunu göstərir. Amma dövləti layiqincə idarə etmək məharətinə sahib olmaq, bu fəaliyyəti yalnız millətin və dövlətin maraqlarının ödənməsinə yönəltmək, siyasi sələflərdən miras olaraq əldə olunan dövlətçilik potensialını dəfələrlə artırmaq kimi xüsusiyyətlər isə yalnız həqiqi liderlərə xasdır. Buna görə də, tam əminliklə söyləmək olar ki, bu gün Prezident İlham Əliyevin şəxsiyyəti Azərbaycanla bərabər yüksəlir və dünya miqyasında nüfuz qazanır. Beləliklə də, öz tərcümeyi-halını Azərbaycanın inkişaf və quruculuq tarixinə həkk etdirir". Daha sonra kursda iştirak edən gənclərin sualları cavablandırılıb.

# Azərbaycanın növbəti siyasi qələbəsi



***Qoşulmama Hərəkatı 120 üzv ölkə, 17 müşahidəçi ölkə və 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi heç bir bloka daxil olmadığını və tərəfsizliyini bəyan edir. Bu qurum BMT-dən sonra dünya dövlətlərinin ən böyük qurum hesab olunur. Hərəkatın daimi katibliyi yoxdur və sədrlik iyerarxiya prinsipi üzrə deyil, sıra prinsipi əsasında səs çoxluğu ilə təyin olunur və çox sevindirici haldır ki, 2019-2022-ci illərdə sədrliyin Azərbaycan tərəfindən icra ediləcəyi qərarlaşdırılıb.***

Bakıda Qoşulmama Hərəkatı sammitinin keçirilməsi və Azərbaycanın bu ildən hərəkata sədrlik etməsi tarixi əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, ölkəmiz İran və Rusiya kimi güclü dövlətlər tərəfindən əhatə olunan qeyri-sabit geostrateji platformada yerləşir, deməli, iki güclü dövlətin əhatəsində olan Azərbaycanın iki qütb arasında tərəfsiz mövqeyini qoruyub-saxlaması bir tərəfdən müstəqilliyinin və suverenliyinin təmin edilməsi, digər tərəfdən, dünya siyasəti müstəvisində neytral mövqeli və sülhməramlı dövlət kimi söz demək haqqı qazanması, söz sahibi olması deməkdir. Çünki belə bir vəziyyətdə Qoşulmama Hərəkatının sədri, ən azından, üzvü kimi ölkəmizin rəqib dövlətlər arasında körpü rolunda çıxış etmə şansı təkzibedilməzdir.

Sədrlik edəcəyi 3 il ərzində təkcə dövlətimizin deyil, regionun ümumi təhlükəsizlik maraqlarını müdafiə etmək və münaqişə tərəflərini neytrallaşdırmaq baxımından da, ölkəmizin seçiləməsi böyük əhəmiyyət kəsb edir. Heç şübhəsiz ki, Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsipləri çərçivəsində həlli istiqamətində daha çox tərəfdar səs toplamağa müvəffəq olması üçün də ölkəmizin bu hərəkata sədrlik etməsi çox təqdirəlayiqdir. Bu, həm də ölkəmizin, şəxsən ölkə başçımız Cənab Prezident İlham Əliyevin uğuru və qələbəsidir.

Qoşulmama Hərəkatının üçüncü dövlətlərə "sığınacaq yeri və mənəvi dəstəkçi" qismində deyil, hal-hazırda əməli addımlar atmaq əzmində olan işlək bir mexanizm kimi formalaşması çox böyük perspektivlərdən xəbər verir. Heç də, təsadüfi deyil ki, hər kəs bu hərəkatın ən yaxın gələcəkdə BMT və NATO kimi təşkilatlara layiqli rəqib olacağı qənaətindədir. Bu qənaətə səbəb isə, sözsüz ki, hərəkatın öz fəaliyyətini təkcə sülhün müdafiəçisi kimi yox, həm də siyasi, iqtisadi, ekoloji və digər müstəvilərdə qoruyucu yönündə istiqamətləndirə bilməsidir.

Müstəqilliyini bərpa etdiyi gündən bu vaxta qədər Azərbaycanın ev sahibliyi etdiyi ən böyük və əhəmiyyətli beynəlxalq tədbir, demək olar ki, məhz Qoşulmama Hərəkatının XVIII sammiti hesab oluna bilər. Müqaisə üçün qeyd etmək yerinə düşərdi ki, üzv ölkələrin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təşkilat, məhz Qoşulmama Hərəkatıdır və bu təşkilata üzv olan ölkələrdə dünya əhalisinin 55 faizi yaşayır. Dünyaunın neft ehtiyatlarının 75 faizinin, qaz ehtiyatlarının isə 50 faizinin bu hərəkata üzv ölkələrin payına düşməsi çox vacib və təsiredici faktordur. Belə bir sammitin, məhz Bakıda keçirilməsi, heç də sıradan bir hadisə deyil və bu, ölkəmizin dünya ölkələri arasında artan nüfuzunu və geosiyasi anlamda təsir gücünü təsdiq edir. Azərbaycanın bu ildən etibarən 2022-ci ilə qədər hərəkata sədr seçilməsi isə, ölkəmizin söz sahibi olmasını bir daha nümayiş etdirir. Bütün bunlar ölkə başçısının rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar sırasındadır və bu uğurlar da, öz növbəsində, gələcək perspektivlərə, daha böyük nailiyyətlərə yol açır və əsaslı zəmin yaradır.

Hazırda ölkəmizə qarşı işğalçılıq siyasəti yürüdən, torpaqlarımızı qəsb edən ermənilərin bütün dünyada lobbiçilik fəaliyyəti, bu lobbiçiliyin təsir mexanizmi danışmaz həqiqətdir. Bir çox hallarda, beynəlxalq miqyasda qurumların, ayrı-ayrı ölkələrin siyasətçilərinin ikili standartlar sərgiləməyə də bu lobbi vasitəsilə təhrik edildiyi də günün reallığıdır. Məhz belə bir məqamda, 120 ölkənin üzv olduğu siyasi platforma, lazımi anda Azərbaycanın qlobal dəstək qazanması üçün əvəzolunmazdır. Azərbaycanın 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində ölkəmizin Qoşulmama Hərəkatına üzvülüyünün təsiri böyük olub desək, yanılmarıq. Bu baxımdan da, deyə bilərik ki, ölkəmizin sədrlik etdiyi təşkilatın bundan sonra bütün regionda təhlükəsizliyə, ərazi bütövlüyümüzə öz töhfəsini verəcəyi şübhə doğura bilməz. Qarabağ münaqişəsinin həlli istiqamətində Qoşulmama Hərəkatının Azərbaycanın ərazi bütövlüyünü, birmənalı şəkildə, dəstəkləməsi bunun əyani sübutudur və bu, həm də beynəlxalq müstəvidə mövqelərimizin möhkəmlənməsi və növbəti siyasi qələbəmizdir.

***İnam HACIYEV***

# Azərbaycan sirli Şərq ölkəsi kimi turistlərin marağındadır

***Reallıqlar göstərir ki, müasir dövrümüzdə Azərbaycanın turizm ölkəsinə çevirməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai-coğrafi mövqeyi, Xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir.***



Təbii ki, turizm insanların səyahətlərinin təşkilinə, onların mənəvi rahatlığına xidmət etməklə bərabər, maariflǝndirmək, dünyagörüşünün inkişafı baxımından əhəmiyyət kəsb edən bir sahədir. Bütün bunlarla yanaşı, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Əlbəttə ki, Azərbaycanda turizmin inkişafı məsələsi təkcə sosial-iqtisadi əhəmiyyət kəsb etmir. Çox mürəkkəb məkanda yerləşən ölkəmizin dünyaya daha real şəkildə təqdim edilməsinə də təsirini göstərir. Azərbaycanın ərazisinin bu gün 20 faizinin Ermənistan tərəfindən işğal altında olduğu bir zamanda təbliğat və təşviqat aparmaq, ölkəmiz haqqında reallıqları dünya xalqlarına çatdırmaq üçün turizm əlaqələrinin genişlənməsinin böyük əhəmiyyəti vardır. Kəlbəcərin isti suyu, Şuşanın, Laçının sərin bulaqları, əzəmətli dağları və meşələri erməni işğalı altındadır. Turizm səfərlərinə gələn xarici ölkə vətəndaşlarına ölkəmizin tarixi və mədəniyyəti, onun mənəvi dəyərləri haqqında geniş məlumatların çatdırılması Azərbaycanın dünya ölkələrinə tanıdılması baxımından diqqətəlayiqdir. Bütün bu reallıqları nəzərə alaraq, Azərbaycan turizmi sistemli şəkildə inkişaf etdirilir. Azərbaycana gələn hər kəs ölkəmizin tarixini və coğrafi mövqeyini görür. Avropa və Asiya qovşağında yerləşən Azərbaycanın iqlimi, rəngarəng təbii-coğrafi quruluşu bütün il boyu xaricdən turist qəbul etmək imkanına malikdir. Ölkəmizin ayrı-ayrı bölgələrində nadir memarlıq abidələri vardır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar vardır. Qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdır. Bu günlərdə "Best in travel" adlı reytinq cədvəlində müxtəlif kateqoriyalar üzrə dünyanın ən yaxşı səyahət istiqamətlərinin adları sırasında Azərbaycanın turizm üçün dünyanın ən sərfəli ölkələri siyahısında yer alması ölkəmizin böyük turizm imkanlarına malik olduğunun göstəricisidir. Ölkəmizlə yanaşı, bu siyahıda İndoneziya, Hindistanın, ABŞ-ın Buffalo şəhəri, Serbiya, Tunis, Yunanıstan və Zənzibarın da (Tanzaniya) adı var. Qeyd edək ki, ümumiyyətlə, reytinq cədvəli 3 faktor: aktuallıq, ilkin təəssürat və sonrakı nəticə üzrə hazırlanıb.

Regionlar üzrə bölgüdə də İpək Yolu ölkələrinə üstünlük verilib. Bu sırada da Azərbaycan, Qırğızıstan, Özbəkistan və Tacikistanla birlikdə yer alır. Bu ölkələr sirli Şərq aləmi kimi turistlərin maraq dairəsindədir.

Əlbəttə ki, Azərbaycanda turizmin maddi-texniki bazasının möhkəmləndirilməsi, turizmin inkişafına dair dövlət proqramlarının icrasının məntiqi nəticəsi olaraq, Azərbaycan turizm sahəsində yeni bir mərhələyə qədəm qoymuşdur. Və bu sahədə dövlətin apardığı siyasət turizmin inkişafına güclü təkan göstərir. Azərbaycan turizm sektoru sürətlə inkişaf etməkdədir. İnşa olunan otellər, yüksək standartlara uyğun xidmətin göstərilməsi diqqətdədir. Bu baxımdan, turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu ayrıca qeyd etmək lazımdır. Azərbaycanda turizm imkanlarının genişləndirilməsi, yeni turizm marşrutlarının açılması, qış turizminin inkişaf etdirilməsi ölkəmizdə turizmin inkişafı üçün əlverişli şəraitin olduğunu göstərir.

Turizmin qloballaşması müasir dövrün reallığıdır. Turizmin təşkilinə üstünlük verən ölkələr dünyanı tam şəkildə qəbul edir, onun hər yerində sülhün və əmin-amanlığın qorunmasına çalışırlar. Çünki müharibələr, münaqişələr, terror hadisələri turizmin inkişafına mane olan ən başlıca amillərdir. Bu gün ölkəmizdəki sabitlik və əmin-amanlıq turizmin də inkişafında önəmli faktordur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Erməni nazir Mövlud Çavuşoğlunun bəyanatından təşvişə düşüb



Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Bakıda işğalçı Ermənistanın regionda sülhə və sabitliyə təhlükə törətməsi ilə bağlı verdiyi bəyanat Ermənistan rəsmilərini təşvişə salıb. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, erməni parlamentində çıxış edən bu ölkənin xarici işlər naziri Zöhrab Mnatsakanyan Türkiyə rəsmilərinin ritorikasını Ermənistanın təhlükəsizliyinə təhlükə adlandırıb.

Rəsmi Ankaranın növbəti dəfə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycana dəstəyini ifadə etdiyini diqqətə çatdıran Mnatsakanyan deyib ki, Mövlud Çavuşoğlunun "Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi üçün əlimizdən gələni edəcəyik" sözləri Ermənistanın təhlükəsizliyinə təhlükədir və ermənilər üçün ciddi problemdir. Erməni nazir əlavə edib ki, Türkiyə xarici siyasət idarəsinin rəhbərinin PKK terror təşkilatının tərkibində erməni terrorçuların da olması barədə bəyanatı da Yerevanda ciddi narahatlığa səbəb olub.




# Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələrinin adları açıqlanıb

Bu ilin 9 ayında Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı qərarlaşıb. Dövlət Gömrük Komitəsinin məlumatında deyilir ki, hesabat dövründə ölkəmizin İranla ticarət dövriyyəsinin həcmi 390 milyon 662 min ABŞ dolları, BƏƏ ilə 48 milyon 186 min dollar, Səudiyyə Ərəbistanı ilə 9 milyon 29 min dollar olub. İran və Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət dövriyyəsi ötən ilə nisbətən artıb, Səudiyyə Ərəbistanı ilə isə azalıb.

Bu ölkələr, eyni zamanda, Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında da ilk üçlükdədir. İrandan idxalın dəyəri 362 milyon 914 min dollar, BƏƏ-dən 33 milyon 810 min dollar, Səudiyyə Ərəbistanından isə 8 milyon 99 min dollar təşkil edib. Ölkəmiz Səudiyyə Ərəbistanından idxalı azaltsa da, İran və BƏƏ-dən idxalı artırıb.

# Çin səfərindən yaranan təəssüratlar və istəklər

***Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çin Xalq Respublikasına səyahətə gedəcək nümayəndə heyətinin tərkibinə mənim də daxil olduğumu eşidəndə, çox sevindim. Uşaqlıqdan görmək arzusunda olduğum möcüzələr ölkəsinə səfərim birdən-birə, gözləmədiyim halda reallaşmışdı. (Yeri gəlmişkən, başda YAP-ın Sədr müavini - İcra katibi cənab Əli Əhmədov olmaqla, bu işə əməyi keçən hər bir şəxsə, mənə bu fürsəti yaratdıqlarına görə təşəkkürlərimi bildirirəm). İndiyədək Çində olmaq mənə müyəssər olmamışdı, indən sonra isə getməyim çox az ehtimal olunurdu. Bir sözlə, gözləmədiyim bir "şahlıq quşu" çiynimə qonmuşdu.***



5 min ildən çox yazılı tarixi olan bu qeyri-adi ölkəni bizə ən çox tanıdan poeziyamızın peyğəmbəri Şeyx Nizami olmuşdu. Nizami babamızı dünyada məhşur edən, elə Azərbaycan ədəbiyyatına da dünyada şöhrət gətirən "Xəmsə"sinə daxil olan 5 poemadan biri "Yeddi gözəl" poemasında - Nizaminin 7 gözəlinin biri Çin qızıdır. Nizamidən çox sonra 1994-cü ildə Çini bizə bir də Ümummilli Liderimiz Heydər Əliyev kəşf etdi. Azərbaycan öz müstəqilliyini 1991-ci ildə bərpa etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyev Çin Xalq Respublikasına müstəqil bir dövlətin başçısı kimi səfər edirdi. O zaman yenicə öz müstəqilliyinə qovuşmuş gənc respublika üçün dünyanın fövqəldövlətlərindən biri olan Çinlə iqtisadi və mədəni əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edirdi. Səfərin yekunlarını ümumiləşdirən Ulu Öndər deyirdi: "Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdı. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük İpək Yolu" və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə, Azərbaycan Respublikası üçün böyük hadisədir".





O zaman Ulu Öndərlə Çinə gedən nümayəndə heyətinin tərkibində olmuş Xalq şairi Zəlimxan Yaqub öz məhşur "Çin qızı, Çin gözəli" şeirində deyirdi:

Mən indi başa düşdüm,
Niyə Nizami babam
Çin yazıb, Çin deyirmiş!
Mən indi başa düşdüm,
Niyə Füzuli babam
Sevgiyə din deyirmiş!
Mən indi başa düşdüm,
Nə üçün Molla Pənah
Çinu-Maçin deyirmiş!
Əvvəl babalar olub
İndi də mən heyranın
Çin qızı, Çin gözəli!

1998-ci il sentyabrın 8-də Bakıda Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində keçirilən beynəlxalq konfransın keçirilməsi Azərbaycan-Çin münasibətlərinin sonrakı inkişafında mühüm rol oynadı. Beləliklə, müstəqil Azərbaycanın həyatının bütün sahələrində olduğu kimi, Çinlə münasibətlərin də əsasını Ulu Öndərimiz qoymuş və onu Prezidentimiz İlham Əliyev uğurla davam etdirir. 2005-ci il mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına ilk rəsmi səfəri reallaşdı. Çin Xalq Respublikasının o zamankı sədri Xu Szintao bu səfəri iki ölkə arasında münasibətlərin tarixində mühüm hadisə kimi qiymətləndirirdi. 2006-cı ilin 19 oktyabrında Çin-Azərbaycan Dostluq Cəmiyyəti yaradıldı. 7 avqust 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək üçün Çində səfərdə oldu. 2015-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin-Azərbaycan əlaqələrinin inkişafının önəminin mühüm əhəmiyyəti kimi Çin Xalq Respublikasına Dövlət Səfərinə getdi. Cənab İlham Əliyev həmin səfərdə Çin Xalq Respublikasının sədri Si Çinpinlə, Çin Xalq Respublikasının dövlət şurasının baş naziri Li Keqiyanqla, Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin (Parlamentin) sədri ilə Azərbaycan-Çin münasibətlərinin gələcək inkişafı naminə çox mühüm görüşlər keçirdi və mühüm dövlətlərarası sənədlər imzalandı. Sadalanan səfərlər və görüşlər Azərbaycan-Çin əlaqələrinin inkişafında hər biri mühüm rol oynamaqla, bu əlaqələrin sonrakı inkişafında həlledici əhəmiyyət kəsb etdi. Və nəhayət, 2019-cu il aprelin 24-də Çin Xalq Respublikasının Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ölkəyə işgüzar səfərə gəldi. Cənab İlham Əliyevin Prezidentliyi dövründə Onun dövlət başçısı kimi bu səfərini bundan əvvəlki səfərlərdən fərqləndirən əsas amil isə Onun bu fövqəlölkəyə "Bir kəmər, bir yol" meqa layihəsi çərçivəsində Çin Xalq Respublikasının rəhbəri Si Çinpinin dəvəti ilə gəlməsi idi. Yeri gəlmişkən, oxuculara "Bir kəmər, bir yol" layihəsi haqqında qısa məlumat vermək istərdim. Başlanğıcını Çinin qədim paytaxtı Sian şəhərindən götürən, tarixi 3 min ildən daha çox bir müddətə gedib çıxan İpək Yolu əslində, qeyd etdiyim kimi, təzə bir layihə deyil. Onu da qeyd etmək istəyirəm ki, hələ Si Çinpindən əvvəl İpək Yolunun bərpası layihəsi Ulu Öndərimiz Heydər Əliyev tərəfindən irəli sürülmüş və bununla əlaqədar, yuxarıda qeyd etdiyim kimi, 1998-ci ildə, məhz Heydər Əliyevin təşəbbüsü ilə bu layihənin bərpası üzrə Beynəlxalq Konfrans keçirilmişdir.

"Bir kəmər, bir yol" adlı Qədim İpək Yolunun bərpasının müasir tarixi dünyanın ən nüfuzlu siyasət adamlarından biri, böyük islahatçı, nəhəng dövlət xadimi, Çinin müasir simvolu, Çin Kommunist Partiyasının Baş katibi, Çin Xalq Respublikasının sədri, 2012-ci ildə Çin Xalq Respublikasının sədri olmuş Xu Tsizintaonun siyasi varisi, 2013-cü ilin martında bu vəzifələrə seçilmiş Si Çinpin Çində hakimiyyətə gəlməsi ilə başlanır: O, Çin Xalq Respublikası Avropa və Asiya ölkələri arasında iqtisadi, ticari və mədəni əlaqələrin qurulmasına yönəlmiş "Bir kəmər, bir yol" iqtisadi inkişaf konsepsiyasını elan edib. Bu konsepsiyaya əsasən, malların Şərqdən-Qərbə, eləcə də, Qərbdən-Şərqə güzəştli şərtlərlə və qısa zamanda daşınmasını nəzərdə tutur. Avrasiya məkanının 65-dən çox dövlətini əhatə edəcək, 1 trillion dollar maliyyə yükü olan dünyanın ən böyük layihəsinə təkcə Çin 110 milyard dollardan çox sərmayə qoymağı planlaşdırır. Qeyd etmək nə qədər xoşdur ki, nəhəng dünya miqyaslı bu layihəni əhatə edəcək dövlətlərdən biri də Azərbaycandır. Azərbaycan bu layihəyə qoşulan 4 MDB dövlətindən biridir. Azərbaycanın yerləşdiyi coğrafi məkan və mövcud infrastrukturu, məhz ölkəmizin bu meqalayihəyə qoşulmasına imkan verir. Qeyd etməyi borc bilirəm ki, Azərbaycanın bu layihəyə qoşulması ölkəmizin şimalında və cənubunda yerləşən ölkələrin bu layihəyə qoşulmasına imkan yaradır.

Belə ki, Azərbaycan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovşağında yerləşən yeganə ölkədir. Həmçinin, ölkəmizdə yaradılmış mövcud nəqliyyat infrastrukturu bu layihəyə qoşulmağa imkan verir.

Ardı Səh. 12

# Çin səfərindən yaranan təəssüratlar və istəklər






Əvvəli Səh. 11



Məhz Ulu Öndərin bu istiqamətdə müəyyənləşdirdiyi kursu yaradıcılıqla və yeni şəraitə uyğunlaşdırmaqla davam etdirən Cənab İlham Əliyevin cəsarəti və qətiyyəti sayəsində son illər Xəzər hövzəsində ən böyük limanın - illik gücü 25 milyon ton və bir milyon konteyner alan Ələt Dəniz Ticarəti Limanının tikintisi, böyük iradə, gərgin əsəb və zəhmət hesabına başa gəlmiş Bakı-Tbilisi-Qars dəmir yol xəttinin çəkilişi, yeni avtomobil yolu infrastrukturlarının yaradılması, müasir sərhəd-keçid məntəqələrinin inşası və yaradılması, beynəlxalq təyyarə limanlarının istismara verilməsi, şosse və dəmir yolu şəbəkələrinin genişləndirilməsi və nəhayət, Xəzər dənizinin hüquqi statusunu həll edilməsi "Bir kəmər, bir yol" layihəsinin Azərbaycandan keçirilməsinə imkan verir və Azərbaycan üçün bu layihə nə qədər cəlbedicidirsə, Çin üçün də bir o qədər cəlbedicidir. Layihə haqqında fikirlərini bölüşərkən, İlham Əliyev demişdir: "Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin, müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün geniş imkanlar açır". Söhbətimizin bu yerində Çin haqqında bəzi məlumatları oxucularımızın diqqətinə çatdırmaq istərdim. Bu il oktyabrında 70 illik yubileyini qeyd edən müasir Çin Xalq Respublikası, əhalisinin sayına görə dünyada birinci, (1,4 milyard nəfər), sahəsinə görə (9599 milyon kv km) dünyada 3-cü, UDM-ə görə dünyada birinci, ordusunun sayına görə dünyada birinci, nüvə silahı olan kosmik orbitdə süni peyki dövrə vuran fövqəldövlətdir. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Çin dünyada ən böyük həcmdə mal ixrac edən ölkədir və elə bu səbəbdən, "Dünyanın fabriki" adlandırılır. Çin bizim üçün təkcə "İpək Yoluna", iqtisadi qüdrətinə, qədim əlaqələrinə görə yox, həm də Azərbaycanın ərazi bütövlüyünü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktində Azərbaycanın mövqeyini dəstəklədiyinə görə əhəmiyyətli bir dövlətdir. Yeri gəlmişkən, qeyd etməyi vacib hesab edirəm ki, Çində aparıcı siyasi partiya olaraq dövlətin idarə edilməsində həlledici rol oynayan Çin Kommunist Partiyası ilə Cənubi Qafqazın ən böyük və nüfuzlu partiyası olan Yeni Azərbaycan Partiyasının çox isti və sıx münasibətləri var. Elə səfərimiz də Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələrinin qurulmasının 20 illiyi münasibəti ilə təşkil edilmişdi. Səfər müqayisəedilməz dərəcədə maraqlı keçdi. Təxminən, bir həftəlik səfər o qədər maraqlı və məzmunlu idi ki, sanki bir göz qırpımında keçdi. Hələ səfər başlamazdan əvvəl, belə bir fikirdə idim ki, səfər təəssüratları barədə qeydlər aparım. Lakin səfər başa çatdıqdan az sonra səfər yoldaşımız, Milli Məclisin üzvü, şair Musa Urudun səfər qeydlərini oxuduqdan sonra bu fikrimdən vaz keçdim. Musa müəllim qısa müddət ərzində, zəngin məlumat və təəssüratlarla dolu, hətta ən xırda detalları qeydə almaqla, son dərəcə maraqlı, bədii- publisistik bir material hazırlamışdı. Yazını oxuduqdan sonra mən Musa müəllimin müşahidə qabiliyyətinə heyran qaldım. Hesab edirəm ki, Musa müəllimin bu yazısı (əsəri) artıq kitab halında çıxdıqdan sonra istər çinşünaslar, istər tədqiqatçılar, istərsə də geniş oxucu kütləsi üçün maraqlı və qiymətli bir mənbə olacaqdır. Çində olduğumuz müddət ərzində gördüklərimizdən-eşitdiklərimizdən və şahidi olduqlarımızdan yəqin etdim ki, biz Çin haqqında bu ölkənin, bu xalqın tarixi, mədəniyyəti, adət-ənənəsi, bacarığı, qabiliyyəti, arzu və istəyi, davranışı, əxlaqı və s. çox az bilgiyə malikik. Çin haqqında ancaq çox az sayda olan çinşünaslar və Çinlə maraqlananlar müəyyən bilgiyə malikdir. Bizim də, əsasən, Şərq ölkəsi olduğumuzu nəzərə alsaq, elə sivilizasiyanın da Şərqdən, bir çox hallarda Çindən gəldiyini nəzərə alsaq, fikirləşdim ki, biz niyə Şərqə-gündoğana baxmırıq, niyə Şərqə boylanmırıq? Əgər üzü Nizamidən bəri babalarımız, şairlərimiz, tarixçilərimiz Çini öz yaradıcılıqlarında tərənnüm etdirmişlərsə, niyə biz, bütövlükdə, Avropadan böyük olan (bütün məsələlərdə) Çinə niyə boylanmırıq? Müşahidələr göstərir ki, ayrı-ayrı qurumlar səviyyəsində, habelə, özəl sektorda çalışan biznes strukturları səviyyəsinə münasibətlərin inkişafının dinamikası dövlət başçıları arasında münasibətlərin səviyyəsindən geri qalır. Sirr deyil ki, iqtisadiyyatı böyük sürətlə inkişaf edən Çin gələcəkdə günbəgün artan enerji və xammal mənbələrini, ehtiyaclarını ödəmək baxımından Azərbaycana böyük maraq göstərir və Avrasiya məkanındaona maraqlı və etibarlı tərəfdaş kimi baxır. Azərbaycanın regionda zəngin karbohidrogen ehtiyatlarına, böyük nəqliyyat infrastruktur imkanlarına malik olması, ölkənin nəqliyyat-tranzit qovşağında yerləşməsi Çinin Azərbaycana olan marağını daha da artırır. İqtisadiyyatı sürətlə inkişaf edən, dünyanın aparıcı dövlətlərindən birinə çevrilən və birinciliyi hədəf götürən BMT Təhlükəsizlik Şurasında, beynəlxalq təşkilatlarında söz sahibi olan Çin də Azərbaycana xüsusi əhəmiyyət verir. Belə olan halda, hesab edirəm ki, biz bütün sahələrdə özümüzü həm də Avopanın əks istiqamətinə-Çinə yönəltməliyik. Səfər müddətində müşahidə etdiyim, təəssüf doğuran hallardan biri də ölkələrarası siyasi münasibətlərin bu qədər yüksək səviyyəsi fonunda iqtisadi, mədəni və digər sahələrdə münasibətlərin qaneedici səviyyədə olmaması idi. Hətta bir çox sahələrdə hələ mən Orta Asiya ölkələrini demirəm, biz hətta qonşu Cənubi Qafqaz ölkələri ilə müqayisədə də geridə qalırıq. Artıq zaman yetişib, vaxt gözləmir, biz hamılıqla üzümüzü Çinə çevirməliyik. Fürsətdən istifadə edərək bir sıra təkliflərimi oxucularla bölüşmək istərdim.

1. Mənə elə gəldi ki, çinli iş adamlarının azərbaycanlı iş adamlarına olan inam və etimadı, hələlik, tam formalaşmayıb və iki ölkə arasında ticarət və iqtisadi əlaqələri inkişaf etdirmək üçün, hesab edirəm ki, ilk növbədə, ayrı-ayrı strukturlar, qurumlar və iş adamları arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması istiqamətində çox iş görməliyik.

2. Çin bazarı o qədər nəhəng bir bazardır ki, Azərbaycanın qeyri-neft məhsullarının ixracını, bütünlüklə səfərbər etsək belə, Çin bazarında bir damla təşkil edər. Bu baxımdan, Çinə ixrac olunacaq malların siyahısını və həcmini tərtib edərək, elə həmin məhsulların istehsalını və ixracını təşkil etməklə, bazara giriş əldə etmək olar və bu, bizə çox böyük iqtisadi səmərə verər. Hesab edirəm ki, bu işlə ən yüksək səviyyədə Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası məşğul olmalıdır. Ümumiyyətlə, mənim fikrimcə, İqtisadiyyat Nazirliyinin strukturunda Çin Xalq Respublikası ilə iqtisadi əməkdaşlıq üzrə bir departamentinin, yaradılmasına, Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyinin nəzdindəki ticarət nümayəndəliyinin fəaliyyətinə yenidən baxılmalıdır.

3. Hazırda Çindən Avropaya 3 marşrut üzrə, təxminən, 250 milyon ton civarında yüklər daşınır. Əgər biz dəmiryol infrastrukturumuzu yenidən qursaq, süni maneələri aradan qaldırsaq, qonşu ölkələrlə vahid tarif siyasəti tətbiq etsək, bu yüklərin 10%-nin daşınmasını Azərbaycan üzərindən həyata keçirə bilərik ki, bu da milyardlarla gəlir deməkdir.

4. Fikrimcə, Çin-Azərbaycan münasibətlərinin inkişafında mühüm məsələlərdən biri mütəxəssislərin hazırlığı məsələsidir. Bu işə xüsusi önəm verilməli, gələcəkdə böyük mütəxəssislər dəstəsi hazırlamaq məqsədi ilə istedadlı və bacarıqlı gənclərin, təhsilin bütün səviyyələrində Çinə təhsil almaq üçün gilməsi təşkil edilməli, lazım gələrsə, bu iş üçün xüsusi Dövlət Proqramı hazırlanmalıdır. Proqramda Azərbaycanda orta məktəblərdə Çin dilinin öyrənilməsi, Çin dili üzrə xüsusi dövlət və özəl orta məktəblərin yaradılması, bu işə çinli müəllimlərin cəlb edilməsi, aidiyyəti universitetlərdə çinşünaslıq üzrə ixtisas, fakültə və şöbələrin yaradılması, universitet tələbələrinin Çin Xalq Respublikasına aidiyyəti strukturlarında təcrübə keçməsi və s. məsələlər öz əksini tapmalıdır.

5. Ölkəmizdə çinli iş adamlarının sərmayəsini cəlb etmək məqsədi ilə Çin investorlarına Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşu mühitinə yenidən baxmaq investiya qoyuluşunu artırmaq məqsədi ilə müəyyən güzəştlər müəyyənləşdirmək, Çin investisiyalı müəssisələrdə azərbaycanlı mütəxəssislərin və peşə sahiblərinin işləmələrinə şəraitin yaradılması.

6. Çin Kommunist Partiyası strukturlarının dövlət idarəliyində iştirakının öyrənilməsi, bununla əlaqədar, xüsusi tədbirlər planı tərtib edilməsi və həmin təcrübənin tətbiqi məsələsinə baxılması. Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında yaranmış yüksək səviyyəli əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, partiya strukturları və üzvləri arasında qarşılıqlı səfərlərin, təcrübə mübadilələrinin intensivləşdirilməsi. İlkin mərhələlərdə ildə 2-3, sonrakı illərdə bir qədər də çox Yeni Azərbaycan Partiyasının istedadlı gənclərinin Çin Kommunist Partiyasının nəzdindəki Partiya Məktəbində, eyni zamanda, bir o qədər çinli gəncin Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında pulsuz təhsil almalarına şəraitin yaradılması. Hesab edirəm ki, Çinin yaxın gələcəkdə bütün sahələr üzrə dünyanın superdövlətinə çevriləcəyini nəzərə alaraq Azərbaycan və Çin münasibətlərini yüksək səviyyəyə qaldırmaq üçün uzunmüddətli xüsusi bir Proqramın işlənməsinə ehtiyac vardır.

***Ramiz Göyüşov,***
***YAP Binəqədi rayon təşkilatının sədri***

# Əli Kərimli xaricdən qidalandığı kimi, sifarişlərini də ordan alır

***Dağıdıcı müxalifət növbəti dəfə noyabrın 2-də Bakı şəhərinin mərkəzində icazəsiz aksiya keçirməyi planlaşdırır. Sual yaranır: nəyə görə Əli Kərimli, Cəmil Həsənli və digərləri icazəli deyil, icazəsiz aksiyaları keçirməyi daha çox meyil göstərirlər? Söhbət etdiyimiz müsahiblərimiz bildirdilər ki, xaricdən verilən sifariş ondan ibarətdir ki, “Milli Şura” və AXCP liderləri şəhərin mərkəzində qarşıdurmalar yaratsınlar. Bu baxımdan, Əli Kərimli ciddi və mənəvi dəstək aldığı xarici ağalarının göstərişlərini yerinə yetirir.***

## “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov: “Ağaları “Milli Şura”ya icazəsiz aksiyalar keçirmək göstərişi verir”



- Xaricdəki ağaları “Milli Şura”ya icazəsiz aksiyalar keçirmək göstərişi verir, onların da hədləri nədir ki, ağalarının sözündən çıxsınlar. Oktyabr ayı Azərbaycanın müstəqilliyinin bərpası ilə tarixə düşmüş bir aydır. Lakin 2019-cu ilin oktyabrında Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq o qədər hadisələr baş verdi ki, onların əhəmiyyəti haqqında saatlarla deyil, günlərlə danışmaq olar. Cənab Prezidentin ard-arda Soçidə və Aşqabadda etdiyi cəsarətli çıxışları, Türk Şurasının Bakı Zirvə toplantısı, nəhayət, 120 dövlətin rəhbərlərinin iştirakı ilə Qoşulmama Hərəkatının Bakı Zirvə toplantısı və Azərbaycanın növbəti üç il ərzində bu mötəbər quruma sədrlik etməsi, bütün bunlar bizi və dostlarımızı nə qədər sevindirirsə, düşmənlərimizi də o qədər məyus edir, narahatlıqları artır. Nəticədə, nəyin bahasına olursa-olsun, bu, inkişafa mane olmaq üçün yeni planlar hazırlanır. Bu planların içərisində Azərbaycanda qarşıdurma və xaos yaratmaq başlıca bəndlərdəndir. Buna nail olmağın ən qısa yolu da, məhz “çörək” verdikləri, bəslədikləri bəzi müxalif qüvvələri qanunsuz əməllərə sövq etmək, bunun qarşısını almaq üçün addım atan Azərbaycan hakimiyyətini suçlamaq, yenə təkrar belə addımlara rəvac verməmək, qaragüruhu da bura cəlb etmək və istəklərinə nail olmaq! Budur bizə düşmən kəsilən, demokratiyadan, insan haqlarından ağızları köpüklənə-köpüklənə danışan Qərb dünyasının istəyi. Çünki tarix boyu türk xalqlarına qarşı düşmən kimi meydana atılan hayların indiki dünya düzəni ilə bir araya sığmayan istəklərini reallaşdırmağın yolu, Azərbaycanda insan haqlarının qorunmaması, demokratiyanın olmaması kimi sərsəm fikirlərə dünyanı inandırmaqdan keçir. Nə yazıqlar ki, özünü müxalifət adlandıran siyasət dəllalları bütün bu oyunları biləbilə ona, nəinki rəvac verir, bu istəyin reallaşması üçün hər cür şərəfsizliyə gedirlər. Məncə, “düşmənimin dostu da düşmənimdir” deyimi ilə yanaşmağın, belə qüvvələri dövlətimizin düşməni elan etməyin və onlara da haylara bəslənən münasibət bəsləməyin zamanı çatıb, daha doğrusu, həmin qüvvələr özləri bu zamanı yetişdiriblər. Çünki kor-kor, gör-gör deyiblər, hər şey göz qabağındadır. Onlara güzəşt etmək ölkəni, həqiqətən, çətin duruma gətirib çıxara bilər. Ona görə də, belə qüvvələrin zərərsizləşdirilməsi üçün qanunun bütün gücündən istifadə olunmalıdır.

## “Paralel” qəzetinin baş redaktoru Tapdıq Abbas: “Qanunsuz hərəkətin qarşısı alınmalı və təxribatçılar cəzalanmalıdırlar”



- Son zamanlar xarici havadarlarının tapşırıqlarını yerinə yetirən dağıdıcı müxalifət, xüsusən, Cəmil Həsənli və Əli Kərimlinin rəhbərlik etdiyi “Milli Şura” ölkədəki sabit durumu pozmaq üçün hərəkətə keçib. Bu üzdəniraq antimilli ünsürlər Azərbaycanı avtoritar ölkə kimi qələmə verməklə, ölkə üzərinə beynəlxalq basqıların güclənməsinə şərait yaratmağa çalışdıqları ilk hal deyil. Bunlar, zatən, xarici sifarişləri yerinə yetirib tulapayı yardımlar əldə etməklə məşğuldur. Xalq bunların kimə və nəyə xidmət etdiyini yaxşı bildiyinə görə, “Milli Şura” adlandırılan dağıdıcı qüvvələrin cəmləşdiyi və ölkəmizə qarşı hər an düşmənçilik etməyə hazır olanları haqlı olaraq rədd edir. 19 oktyabrda Bakı şəhərində törətdikləri qanunazidd hərəkətlərdən sonra dağıdıcı müxalifətin 2 noyabr tarixdə Bakı şəhərində ictimai asayişi pozaraq, təkrarən icazəsiz mitinq keçirmək qərarı eyni çirkin məqsədə xidmət edir və bu qanunsuz hərəkətin qarşısı dövlətin güc strukturları tərəfindən mütləq alınmalı və təxribatçılar cəzalandırılmalıdırlar.

## AGAAMC-in sədri, fəlsəfə doktoru, İlqar Orucov: “Əli Kərimli və Cəmil Həsənli təxribatla məşğuldurlar”

- “Milli Şura”nın mitinq keçirməklə bağlı növbəti çağırışı stabilliyi pozmaq cəhdindən başqa bir şey deyildir. Görünən odur ki, hələ də bu qüvvələr uğursuz hakimiyyət dövrlərinin eyforiyasından xilas ola bilməyiblər və açıq-aşkar, qanuna qarşı çıxmaq bu



adamların vərdiş etdikləri haldır. Qanuna görə aidiyyatı orqana edilən müraciətin cavabı olaraq müvafiq məsləhət bilinən ərazidə mitinqi keçirmək olar. Bunlara müvafiq ərazi təklif olunur və bilavasitə özlərini ərköyün, xüsusi statuslu apararaq kefləri istədikləri məkanı tələb edirlərsə, deməli, məqsəd mitinq, siyasi tələblər irəli sürmək deyil, təxribat, qarşıdurma yaratmaq və bununla da, ölkədə sabitliyi pozmaq istəyidir. Əlbəttə ki, bütün bunlar yolverilməzdir və mitinqi şəhərin mərkəzində keçirmək istəyəcəklərsə, hüququn tələb etdiyi kimi, polis məsələyə müdaxilə edəcək və qanunsuzluq edənlər, birmənalı olaraq cəzalandırılacaqlar. Ona görə də, noyabrın 2-də paytaxtın mərkəzində növbəti mitinq çağırışı Əli Kərimli, Cəmil Həsənli və digərlərinin növbəti təxribatçılıq çağırışından başqa bir şey deyildir. Şəhərin mərkəzində on minlərlə insanın rahatlığını pozan, nəqliyyatın hərəkətini iflic edən, şəhərin normal yaşam tempini pozan bu kimi mitinq cəhdləri əbəsdir. Fikirləşirəm ki, açıq şəkildə qarşıdurmaya gedən radikallar hansısa xarici qüvvələrin sifarişlərini yerinə yetirirlər. Mütləq şəkildə şəhərin mərkəzi, insanların istirahət etdiyi məkanların, insan kütləsinin sıx olduğu böyük ticarət mərkəzlərinin ətrafı, mərkəzi meydanlar təsadüfi seçilmir və bütün bunlar, həm də ona xidmət edir ki, ümumi insan axınında öz azsaylı tərəfdarlarını çox göstərmək məqsədi daşıyır. Nəzərə alsaq ki, istənilən təxribat bu cür vəziyyətlərdə mümkündür və istisna da deyil. Vəzifəsi ölkədə sabitliyi və qanunçuluğu təmin etməyə borclu olan polis, bu halda seyrçi mövqe tutmalıdırmı? Gözləməlidir ki, qanunçuluğu pozan bu qaragüruh mütləq haranı isə vurub dağıtmalıdır, haranı isə partlatmalıdır və ya yandırmalıdır, sonra müdaxilə etsin? Paytaxt əhalisinin 0,01 faizi qədər radikal bir qrupa bu cür qarşıdurmaya getmək tapşırığını kim verib? Bilə-bilə polis qanunla üzərinə düşəcək vəzifəsini icra edəcək, o zaman sual olunur ki, radikallar nədən bu şounu yaratsınlar ki?! Deməli, məqsəd elə, nəyin bahasına olursa-olsun mövcud stabilliyi pozmaq tapşırığının icrasıdır, polislə bilərəkdən qarşıdurmaya getməkdir və bununla da, ölkəmizin imicinə zərər yetirməkdir.

## ADİİM-in sədri “Avrasiya” İA-nın baş redaktoru Cavid Şahverdiyev: “Əli Kərimli şəxsi ambisiyasının girdabında boğulacaq “

- Tam qətiyyətlə demək olar ki, xarici maraqlı dairələrin əlaltısı rolunda çıxış edən AXCP sədri Əli Kərimli şəxsi ambisiyasının girdabında boğulacaq. Radikal müxalifət icazəsiz aksiyalar keçirməklə, Qərbdən daha çox vəsait əldə edir. Kərimli və Həsənli maraqlıdır ki, polislə aksiya iştirakçıları arasında qarşıdurmalar yaransın. Onu da deyim ki, bu aksiyalara təsadüfi adamlar çıxmır, əvvəlcədən təlimatlandırılan və hazırlanan adamlar gətirilir. Onlara tapşırılır ki, hay-küy yaratsınlar, qışqırsınlar, polisin hissiyyatına təsir göstərəcək ifadələr işlətsinlər, hərəkətlər etsinlər və s. Onlar da tapşırıqlarını yerinə yetirirlər. Polislər tərəfindən saxlanılırlarsa, qışqırırlar, yerə yıxılırlar, “huşlarını itirirlər”, bəzisi yalandan özünü yerə yıxır, yaxalarını cırır və s... Bu Kərimli və Həsənli, eyni zamanda, onların özləri üçün də sərfəlidir. Sabah aksiyadan çəkilən fotolarla Azərbaycanda “əzildik”lərini, “döyüldük”lərini əsas gətirib, Qərbdən siyasi mühacir kimi sığınacaq ala biləcəklər. Bundan başqa, Kərimli və Həsənli yaxşı başa düşürlər ki, artıq mitinq təyin etsələr, gələn olmayacaq. Əvvəlki mitinqlərə gələn 500-700 insan bu gün həmin radikalların fikirlərini dəstəkləmirlər. 25 ildir Kərimli insanları aldadır, onları qarşıdurmaya sürükləyir, dövlət və dövlətçilik əleyhinə fikirlər, çıxışlar etməyə məcbur edir. Onun ucbatından qanunları pozan nə qədər gənc həbsxanalara salınıb. Kərimlinin istəyi Azərbaycanda demokratik dəyərlərin qorunmasına, dövlətçiliyimizə və müstəqilliyimizə xidmət etmək deyil. Nə zaman görmüsüz ki, Kərimli hakimiyyətin apardığı hansısa islahatı, əhalinin sosial rifahına istiqamətlənən qərar və sərəncamı dəstəkləsin, xoş fikirlər söyləsin? Bu insan 25 ildir, ancaq dağıdıcı mövqedən çıxışlar edir. Ona görə də, artıq ətrafında heç kim qalmadığından, icazəsiz aksiyalara üstünlük verir. Bu gün 50-60 insanı küçələrə çıxarmaq çox asandır, amma Kərimli unudur ki, sabah-biri gün həmin 50 insanı da itirəcək. Qərbin anti-Azərbaycan qüvvələri nə qədər vəsait xərcləsələr belə, xalqla hakimiyyət birliyini zəiflədə bilməyəcəklər.



***GÜLYANƏ***

## İŞİD Bağdadidən sonra özünə yeni lider seçib

İŞİD terror qruplaşması Hacı Abdullah əl-Afari kimi tanınan Abdullah Qardaşı Suriyanın İdlib əyalətində ABŞ Silahlı Qüvvələrinin əməliyyatı nəticəsində öldürülən Əbu Bəkr əl-Bağdadinin əvəzinə yeni lider seçib.

Newsweek portalı xəbər verir ki, Əbu Bəkr əl-Bağdadi hələ 2019-cu ilin avqustunda Abdullah Qardaşı özünün varisi təyin etmişdi. Qruplaşmanın yeni lideri haqda çox az məlumat var, onun Səddam Hüseynin hakimiyyəti dövründə İraq ordusunda zabit kimi xidmət etdiyi bildirilir. Xatırladaq ki, oktyabrın 27-də ABŞ Prezidenti Donald Tramp xüsusi təyinatlı qüvvələrin İdlib əyalətində keçirdiyi əməliyyat nəticəsində İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin öldürüldüyünü təsdiqləyib. Əməliyyat nəticəsində, həmçinin qruplaşmanın mətbuat-katibi Əbu-əl-Həsən əl-Mühacir də öldürülüb.

## Belçika tarixində ilk dəfə Baş Nazir vəzifəsini qadın tutub

Belçikanın Baş Naziri vəzifəsində fransızdilli liberal Çarlz Mişeli ölkənin indiki müvəqqəti hökumətində büdcə məsələləri üzrə nazir Sofi Vilmes əvəz edib. Beləliklə, Vilmes Belçika tarixində ölkədə hökumətinə başçılıq edəcək ilk qadın olub. Çarlz Mişel isə ümumavropa strukturlarında yeni işə başlamaq üçün yır-yığış edir. Bu haqda qərar ölkənin əsas nazirlərinin iştirak etdiyi iclasda qəbul olunub.

TƏRS BAXIŞ

# Əli Kərimlinin yanındakıları bir daha xatırlayaq

### *AXCP sədrinin "siyasi dəstəkçiləri" separatçılar, renaqatlar və sadistlərdir*



***AXCP sədri Əli Kərimlinin yan-yörəsinin siyasi tullantılar olduğu, əslində, hər kəsə bəllidir. Həmçinin, onun özünün dəfələrlə gah Qərbə, gah Şərqə satılması, bu yöndə Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyəti kifayət qədər faktlarla sübuta yetirilib. Lakin məsələnin digər tərəfi də var. Necə deyərlər, atı atın yanında bağlasan, həmrəng olmasa da, həmxasiyyət olar. Yəni bu gün Ə.Kərimlinin ətrafında olub, sosial şəbəkələrdə ona-buna satılanlar, qışqırıb-bağıraraq, öz taylarını tapıblar.***

Elə də uzağa getməyərək, hələ iki il öncə, "Milli Şura"nın mitinqinə qatılmayanları "qeyrətsiz" və s. kimi özünə yaraşan ifadələrlə təhqir edən Eldəniz Quliyevi xatırlayaq. Belə ki, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü E.Quliyevin vaxtilə özünü qondarma "Talış-Muğan Respublikası"nın rəhbəri elan etmiş, hazırda Yerevanda "talışşünaslıq"dan mühazirə oxuyan Əlikram Hümbətovun ictimai-siyasi məsələlər üzrə müşaviri olmasından çoxları xəbərdardır. Bu adıçəkilən separatçı indi də, birdən-birə dönüb-olub kərimovçu və guya Azərbaycan xalqının və millətinin "dərdini çəkirmiş"...

## Eldəniz Quliyev separatçı və xain Əlikram Hümbətovu bu cür dəstəkləmişdi...

Fəqət, onu da qeyd edim ki, "Azəri-Talış Birliyi"nin sədri, "Milli Şura"nın funksioneri E.Quliyev Ə.Hümbətovun, bir neçə il öncə, Ermənistana səfəri ilə bağlı mətbuata verdiyi açıqlamasında separatçının düşmən ölkəyə getməsinə inanmadığını (?!-R.N.) deyərək, açıq və israrla (!!!) onun tərəfini saxlamışdı. Halbuki bu gün mitinqlərdə polisimizə qarşı düşmən ermənidən betər şər-böhtançı kampaniyalar aparan əsas ünsürlərdən biri də, məhz odur!

Yaxşı, bəs düşmən ölkəyə sığınıb, antiazərbaycançılıq və separatçılıq fəaliyyəti göstərən, işğal altındakı Qarabağımızda talış dilində radio-efir açan Hümbətov barədə E.Quliyev nə demişdi? Elə isə xatırlayaq: "Hesab edirəm ki, Əlikram Hümbətov Xocalı soyqırımını törətmiş, vəhşiliklər törətmiş ermənilərin dəvəti ilə Ermənistana getməz. Mən buna inanmıram".

Mənbə: http://www.dia.az/28878-eldzhndz-quldyevdn-ddqqzhtdnzh-bu-d...

Lakin onun israrının ardınca, Ə.Hümbətovun Yerevanda mühazirəsini əks etdirən foto-fakt mediada yayıldı və bu gün "Milli Şura"nın öndəgedənləri sırasında Ə.Kərimliyə dəstək göstərən E.Quliyev bu barədə heç bir fikir bildirmədi. Niyə və nəyə görə həmin ərəfələrdə ifşa olunmasına, ən azından, yalan-palan da olsa, təkzib vermədi E.Quliyev?! Bu sualın cavabı çox bəsitdir. Sadəcə, o, reallığı susması ilə qəbul edib və unutdurmağa çalışıb. Həmin E.Quliyev ki, indi də Ə.Kərimlinin yan-yörəsində, sözün əsl mənasında, sümük dalınca qaçan köpək kimi sülənir!

## İndi də dönüb-olublar xalqın "dərdçəkənləri"

Söz yox ki, Ə.Kərimlinin ətrafında renaqatlar da kifayət qədərdir. Misal üçün, bir deputat mandatına görə (qazandığı) uzun illər fəaliyyət göstərdiyi AXCP-yə tüpürən, sonradan yenə də deputat mandatına görə (qazana bilmədiyi) AXCP-yə geri dönən, indi də guya "müxalifətin lideri" olan, "mal oğrusu", "KQB agenti" kimi tanınan Cəmil Həsənli də, indi dönüb-olub "xalqın dərdçəkəni".

Yaxud Gültəkin Hacıbəyli... Məgər bu ünsürün də zamanında iqtidar düşərgəsindəki fəaliyyəti unudulubmu? Parlamentə seçilmədiyinə görə millətə, dövlətə və xalqa bu qədərmi düşmən kəsilmək, xarici diplomatik nümayəndəliklərə bu qədərmi satılmaq lazımıydı? Məgər Ə.Kərimlinin də özü yaxşı anlamırmı ki, həmin bu satılanlar, şəxsi maraqlarına görə, onun-bunun altına yıxılan adamlar, vaxtı çatanda, onun özünə də xəyanət edəcəklər? Əslində, bilir və çox yaxşı bilir.

## Xalq xəyanətkarların, satqınların, reneqatların, separatçıların və sadistlərin ayaq açıb, bu dövlətə qarşı düşmənçilik etmələrinin qarşısını qətiyyətlə alacaq!

Çünki onun özü də zamanında "liderim" dediyi mərhum Əbülfəz Elçibəyə çoxsaylı xəyanətlər etmişdi. Eləcə də, bu gün Avropada oturub erməni lobbisinin arxasını dəsmallayan Qənimət Zahid, AXCP-nin sədr müavini Gözəl Bayramlı da Elçibəyin zəhərlənərək öldürülməsində xüsusi canfəşanlıq göstərməyiblərmi?!

Həmçinin, Ə.Kərimlinin sadist, qəddar, öz ailəsinə qarşı amansız rəftarları ilə gündəmə gələn Fuad Qəhrəmanlımı xalqın və ölkənin qeydinə qalacağıymışlar? Əsla! Xalq buna imkan verməyəcək. Çünki əvvəllər də verməyib, bundan sonra da xəyanətkarların, satqınların, reneqatların, separatçıların və sadistlərin ayaq açıb, bu dövlətə qarşı düşmənçilik etmələrinin qarşısını qətiyyətlə alacaq. Bax, buna isə kimsənin, eləcə də, həmin ünsürlərin heç şübhəsi olmasın!

***Rövşən RƏSULOV***

# "Milli Şura" növbəti sərsəm iddialara düşüb

### *Bu, onların sonu olacaq*



"Milli Şura" 26 ildən artıq bir müddətdir ki, yüzlərlə rüsvayçı mitinqlərdən ibrət dərsi götürməyərək, ölkədə keçiriləcək bələdiyyə seçkiləriərəfəsi yenidən mitinq keçirmək qərarına gəlib. Ən gülüncü isə, bu qurumda özünü "siyasətçi" hesab edən satqın və əxlaqsız Əli Kərimli sosial şəbəkələrdən mitinqə çağırışlar edərək gənclərə mitinqdə iştirak etmək çağırışı edərək, bildirir ki, "bununla gələcəyinizi təmin etmiş olursunuz". Alçaqlıq bu qədər də olmaz. Təəccüb də doğurmur. Ay satqın Ə.Kərimli, anla ki, əsl siyasətçi ona deyilir ki, səhvlərdən nəticə çıxarmağı, həmin səhvləri təkrarlamamağı bacarsın. Əgər siyasətçi səhvləri sıralayırsa və ən pisi, onları təkrarlayırsa, bu, primitiv düşüncənin, hədsiz ambisiyaların və gerçəyi anlamamağın, şərtlərin diqtəsini başa düşməməyin, marazm həddinə yüksəlmiş ambisiyalarla natamamlıq kompleksinin göstəricisidir.

Bəli, bu dağıdıcı düşərgədə 25 ildir ki, bu ambisiyalar aydın şəkildə özünü büruzə verir. Ən maraqlısı isə, dağıdıcı düşərgənin dağıdıcı "liderləri" icazəli mitinqi bir "əmma ilə" "əmmaməleyirlər". Xüsusilə də, AXCP sədri Əli Kərimli gecə-gündüz sosial şəbəkələrdən xalqı mitinqə gəlmək çağırışı etdiyi halda, özü mitinqdə iştirak etmir. Səbəb? Bəllidir.

Doğrudan da, bu həmin qurumda təmsil olunanların həyasızlığının yüksək dərəcədə olduğunun göstəricisidir. Yenə də eyni adamlar, eyni şüarlar. İndi də Ə.Kərimli sosial şəbəkələrdən noyabrın 2-nə təyin etdiyi mitinqə çağırışında ölkədə aparılan "sosial və iqtisadi islahatlar" məsələsi ətrafında maxinasiyalar edərək, xarici təşkilatlar qarşısında xal qazanmağa çalışmaqla, növbəti qrant həvəsindən yan keçə bilmədiyini açıq şəkildə sərgiləməkdədir.

## "Milli Şura"nın növbəti sərsəm çağırışları da uğursuzluqla nəticələnəcək

Yenə də özlərinə məxsus qərəzli don geyindirən, hər şeyi qara rəngdə görən "Milli Şura"nın başbiləni, quldur, satqın Ə.Kərimli və ətrafı xarici havadarlarından əlavə qrant qoparmaq üçün bu dəfə qanunvericiliyimizə qarşı məkrli münasibətini "islahatçısayaq" "məntiq" və "düşüncələrinə", xəyallarına uyğun tərzdə formalaşdırır. Onun başlıca məqsədi, ilk öncə, ölkədə siyasi sabitliyi pozmaq, ölkədə bələdiyyə seçkiləri ərəfəsi qarşıdurma yaratmaqdır. Alçaq, mənəviyyatsız cinayətkar Ə.Kərimlidən ancaq belə çirkin əməllər gözləmək olar. "Milli Şura" da daxil olmaqla, ötən siyasi kampaniyalarda özünü doğrultmayan dağıdıcıların mitinq təşəbbüslərinin acı nəticələri, deyəsən, Ə.Kərimli və onun ətrafına toplaşan zümrələr üçün ibrət dərsi olmayıb.

## Araz Əlizadə: "Uşağı döyəndə atasının, iti döyəndə sahibinin yanına qaçır"

ASDP sədri, millət vəkili Araz Əlizadə "Milli Şura"nın mitinq etməkdə məqsədlərinin xaricdəki "yiyələri"nin onların pullarını kəsməməsinə çalışmaları olduğunu bildirib: "Onların çalışdıqları odur ki, xaricdəki "yiyələri" pullarını kəsməsin. Bu vaxta kimi özünü "Milli Şura" adlandıran yox olan ölü qurumun elə bir aksiyasını görmüsünüzmü ki, onu kütləvi aksiya kimi xarakterizə etmək mümkün olsun? Xeyr! Satqın Ə.Kərimlinin hiyləsinə bu günə kimi inanan bədbəxtlər, həqiqətən də, bədbəxtlərdir. "Milli Şura"nın mitinq keçirməkdə məqsədi nədir? Kimə və nəyə etiraz edilir?"

A.Əlizadə onu da vurğulayıb ki, siyasi gündəmdə qalmaqdan ötrü var-gəl edən, çıxış yolu tapmayanda isə, mitinq keçirəcəklərini deyən AXCP-"Milli Şura" cütlüyü ancaq satqınlıqla, qranta görə hər cür alçaqlığa hazır olanlardır. Bu mitinq şouları Əli Kərimli-Cəmil Həsənli cütlüyünün oyunbazlığıdır".

Millət vəkili onu da bildirdi ki, bu günlərdə bir jurnalist sual edib ki, son günlər AXCP sədri Ə.Kərimli tez-tez ABŞ səfirliyinə gedir. Mən də cavab verdim ki, "uşağı döyəndə atasının, iti döyəndə sahibinin yanına qaçır".

## Sərdar Cəlaloğlu: "Faktiki yox olan "Milli Şura"nın mitinqinə nə ehtiyac?"

ADP sədri Sərdar Cəlaloğlu da bildirib ki, "Milli Şura" deyilən bir şey yoxdur axı: "Mitinq keçirmək, bununla da, hər hansı bir uğur əldə edə bilmək şansı sıfır həddindədir. Bu qurum ölü bir qurum kimi, sadəcə, quru adı üzərində "yaşayır". Bu baxımdan, ölü bir qurumun heç bir tədbirinə ciddi yanaşmırlar. Çünki qeyri-ciddidən ciddilik gözləməyin özü də absurd fikirdir".

S.Cəlaloğlu bildirib ki, doğrudan da, adam belə mənasız mitinq oyunlarından bezib: "Sosial bazadan tamamilə məhrum olan Ə.Kərimli, boğazdan yuxarı çağırışlarla xalqı mitinqə toplamaq olmaz. Çünki insanlar artıq bugünkü müxalifət partiyalarına etimad göstərmir. Hay-küylə iş bitmir. Artıq bunu keçirilən mitinqlərin nəticələri də sübut edir".

## Ə.Kərimli nəyə ümid edir?

Bəllidir. Əli Kərimli başa düşür ki, gün keçdikcə, onun siyasi karyerasının perspektivləri daha da acınacaqlı olur. Ona görə də, xarici mərkəz və təşkilatları maraqlandırmaq üçün ona ölkədəki vəziyyəti destabilizə etmək lazım idi. Onu gülünş obyektinə çevrilmək perspektivi qətiyyən narahat etmir və o, hər dəfə daha böyük səylə öz qəzəbli gücsüzlüyünü göstərməyə çalışır. Və başa düşmür ki, Azərbaycan cəmiyyəti onu çoxdan ciddi qəbul etmir. Bu səbəbdən də, Ə.Kərimli nəyin bahasına olur-olsun, üzdə qalmaq və imkan yarandıqca öz mövcudluğunu nümayiş etdirmək istəyir.

Ancaq Ə.Kərimli anlamalıdır ki, cəmiyyətin belə perspektivsiz, mənasız və məzmunsuz mitinqlərə heç bir ehtiyacı yoxdur. Beləlri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib... Və keçirəcəyiniz o mitinqşoularınız da meymunluq eləməyiniz də özünüzə qalacaq.

***Rəfiqə HÜSEYNOVA***

# İcra sahəsində intizamın gücləndirilməsi və süründürməçiliyə yol verilməsinin aradan qaldırılması

***İcra məmurlarının məhkəmə qərarlarını könüllü icra etməyən və ya icrasından boyun qaçıran borcluların məsuliyyət məsələsinin həlli ilə bağlı təsir vasitəsi kimi məhkəmələrə ünvanladıqları təqdimatların bəzən təmin edilməməsi həmin qərarların icrasını çətinləşdirir.***

Müvəkkil 2006-cı ildən etibarən, illik məruzələrində, habelə, səlahiyyətli dövlət qurumlarına ünvanladığı təkliflər sırasında aliment üzrə borcların ödənilməsindəki problemlərin həlli məqsədilə "Aliment Fondu"nun yaradılmasını israrla təklif etmiş və bunu məqsədəmüvafiq sayır.

Müvəkkilin aidiyyəti üzrə müdaxiləsi nəticəsində, bir sıra digər tələblərlə, o cümlədən, əmlak tələbinə dair məhkəmə qərarları da təmin edilmişdir. Lakin məhkəmə qərarlarının borclu dövlət qurumları tərəfindən icra edilməməsi və ya icrasının gecikdirilməsi də vətəndaşların haqlı narazılıqlarına səbəb olmuşdur.

İcra sahəsində intizamın gücləndirilməsi, məhkəmə qərarlarının icra edilməsində süründürməçilik hallarına yol verən, vətəndaşlara münasibətdə etik davranış qaydalarını pozan, öz vəzifələrinə qeyri-peşəkar və laqeyd münasibət göstərən icra məmurlarının cəzalandırılması onların məsuliyyətinin artırılmasına və pozuntuların aradan qaldırılmasına xidmət edərdi.

Ölkəmizdə sabitliyin qorunmasında və ictimai asayişin təmin edilməsində mühüm rola malik olan daxili işlər orqanları bu inkişafın və sabitliyin davamlı olması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kriminogen durumun nəzarətdə saxlanılması üçün öz üzərinə düşən vəzifələri peşəkarcasına və yüksək məsuliyyətlə davam etdirmişdir.

Müvəkkilin insan hüquqlarının müdafiəsi istiqamətində Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı səmərəli olmuşdur. Polis orqanları ilə bağlı 2319 müraciət daxil olmuşdur. Şikayətlərdə, əsasən, vətəndaşların polis əməkdaşları tərəfindən, o cümlədən, təhqiqat və istintaq zamanı təhqirlərə və təzyiqlərə məruz qalması, kobud rəftara yol verilməsi, qanunazidd fiziki güc tətbiq edilməsi, şikayət əsasında toplanmış material üzrə təhqiqatın və ya başlanmış cinayət işi üzrə istintaqın qeyri-obyektiv, qərəzli və ləng aparılması, qəbul edilmiş prosessual qərarın surətinin verilməməsi, müraciətlərin nəticəsiz qalması və ya müraciətlərə baxılmasında süründürməçiliyə yol verilməsi kimi hallar öz əksini tapmışdır.

Şikayətlərlə bağlı daxili işlər orqanlarına müvafiq sorğular göndərilmiş, yoxlama tapşırıqları verilmiş və araşdırmalar aparılmışdır.

2015-ci ildə Müvəkkilin Daxili İşlər Nazirliyinə müraciətinə əsasən, aparılmış xidməti təhqiqatla faktlar təsdiqini tapmış, 10 fakt üzrə 14 əməkdaş intizam məsuliyyətinə cəlb olunmuşdur. Belə ki, kobud rəftara görə, 3 fakt üzrə 4 əməkdaşdan 1-i tutduğu vəzifədən azad edilmiş, 2-nə "şiddətli töhmət", 1-nə "töhmət" elan olunmuş, həmçinin, polis əməkdaşlarının xidməti fəaliyyəti ilə bağlı olan 7 fakt üzrə intizam məsuliyyətinə cəlb edilmiş 10 əməkdaşdan 1-i tutduğu vəzifədən azad edilmiş, 4-nə "şiddətli töhmət", 5-nə isə töhmət elan olunmuşdur.

Daxili İşlər Nazirliyinin rəsmi məlumatına əsasən, ümumilikdə, insan hüquq və azadlıqlarının pozulması ilə bağlı nazirliyə daxil olmuş və təsdiq olunmuş 284 fakt üzrə 369 əməkdaş intizam məsuliyyətinə cəlb edilmişdir (onlardan 126-sı vətəndaşlarla kobud rəftar, 56-sı polisə əsassız gətirmə və saxlama, 68-i sürücülərin hüquqlarının pozulması, 6-sı əsassız cinayət məsuliyyətinə cəlb etmə, 3-ü əcnəbilərin və vətəndaşlığı olmayanların hüquqlarının pozulması, 26-sı isə digər faktlar). Onlardan 46 nəfəri daxili işlər orqanlarında xidmətdən xaric edilmiş, 32 əməkdaş tutduğu vəzifədən azad edilmiş, 291 əməkdaş barəsində isə digər intizam tədbirləri görülmüşdür.

Şikayətlərdə polis orqanlarına müraciətlərin tam araşdırılmaması, qeyri-obyektivliyə yol verilməsi ilə bağlı halların yoxlanılması məqsədilə Müvəkkilin prokurorluq orqanlarına müraciətindən sonra aparılmış araşdırmalar zamanı bəzən şikayətlər üzrə toplanmış materialın tam, hərtərəfli və obyektiv araşdırılmadan cinayət işinin başlanmasının rədd edilməsi haqqında əsassız qərarın qəbul edildiyi müəyyən edilmiş, müvafiq prokurorluq tərəfindən ləğv edilərək, əlavə araşdırma aparılması üçün polis orqanına göndərilmişdir.

Araşdırmalar zamanı vətəndaşın eyni şikayəti ilə bağlı toplanmış təhqiqat materialı üzrə bir neçə dəfə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın qəbul edildiyi müəyyən edilmiş, prokurorluğa müraciətdən sonra material öyrənilmiş, istintaq orqanına göndərilmiş və cinayət işi başlanılmışdır.

Cinayət işi üzrə qəbul edilmiş qərarın əsaslılığı öyrənilərkən, bəzən əlavə istintaq zamanı müstəntiq tərəfindən iş üzrə qəbul edilmiş müvafiq qərarda olan göstərişlərin tam icra olunmadığı müəyyən edildiyindən, işin icraatına xitam verilməsi barədə müvafiq qərar ləğv olunaraq, cinayət işi əlavə istintaq aparılması üçün istintaq orqanına qaytarılmışdır.

Müvəkkilin prokurorluq orqanlarına müraciətlərindən sonra aparılmış yoxlamalar əsasında araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün zəruri istintaq hərəkətlərinin yerinə yetirilmədiyi, iş üzrə mühüm əhəmiyyət kəsb edən istintaq hərəkətlərinin icrasının tam təmin olunmadığı, ifadələr arasında olan ziddiyyətlərin aradan qaldırılmadığı müayyən edildiyi hallarda, cinayət işi üzrə icraatın dayandırılması haqqında qərar ləğv edilmiş, prokuror tərəfindən iş üzrə yazılı göstəriş verilməklə, təkrar istintaqa qaytarılmışdır. Lakin araşdırmanın hərtərəfli, tam və obyektiv aparılmasını təmin etməyən tədqiqatçı və ya müstəntiqlər yol verdikləri bu nöqsanlara görə, bir çox hallarda, intizam məsuliyyətindən kənarda qalmışlar.

Məişət zorakılığının, cinsi əlaqəyə təhrik etmənin, əxlaqsızlığın və hüquq pozuntularının birbaşa və ya dolayısı ilə təbliğinin qarşısının alınması, habelə, əxlaqsızlıq yuvalarının aşkarlanması, ləğvi və onları saxlayan şəxslərin cəzalandırılması üzrə tədbirlər görülməsi zəruridir.

239 şikayətdə vətəndaşlar yol-patrul xidmətinin əməkdaşları tərəfindən təhqirə və kobud davranışa məruz qaldıqlarını, qanunsuz olaraq saxlanıldıqlarını, sənədlərinin qaytarılması və ya cərimənin tətbiq edilməməsi üçün pul tələb olunduğunu, əsassız cərimə olunduqlarını və inzibati xəta haqqında protokol tərtib edildiyini, müraciətlərə cavab verilmədiyini, baş vermiş yol-nəqliyyat hadisəsinin qeyri-obyektiv araşdırıldığını bildirmişlər.

Şikayətlər üzrə Müvəkkil tərəfindən müvafiq araşdırmalar aparılmış, mövcud sahədə işin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülmüş, bəzən sürücülərlə münasibətdə etik normaları pozan və nöqsanlara yol verən Dölət Yol Polisi əməkdaşlarına qarşı intizam cəzaları da tətbiq edilmişdir. Şikayətlərin təhlili bu sahədə mövcud olan bir sıra problemlərin qarşısının alınması istiqamətində təsirli tədbirlər görülməsini tələb edir.

Sürət həddini aşma və ötmə qaydalarının pozulması, avtomobili içkili halda idarə etmə, idarəetməni itirmə, ehtiyatsız davranma, havanın yağmurlu olması kimi hallarla bağlı yol qəzaları nəticəsində, baş verən çoxsaylı ölüm və xəsarətlər narahatlıq doğurur.

Qeyd edilənləri nəzərə alaraq, Müvəkkil Daxili İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi və aidiyyəti dövlət qurumları, habelə, vətəndaş cəmiyyəti təsisatları cəlb edilməklə, kompleks tədbirlər planının hazırlanıb həyata keçirilməsini təklif edir.

İcra sahəsində intizamın gücləndirilməsi, məhkəmə qərarlarının icra edilməsində süründürməçilik hallarına yol verən, vətəndaşlara münasibətdə etik davranış qaydalarını pozan, öz vəzifələrinə qeyri-peşəkar və laqeyd münasibət göstərən icra məmurlarının cəzalandırılması onların məsuliyyətinin artırılmasına və pozuntuların aradan qaldırılmasına xidmət edərdi. Ölkəmizdə sabitliyin qorunmasında və ictimai asayişin təmin edilməsində mühüm rola malik olan daxili işlər orqanları bu inkişafın və sabitliyin davamlı olması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kriminogen durumun nəzarətdə saxlanılması üçün öz üzərinə düşən vəzifələri peşəkarcasına və yüksək məsuliyyətlə davam etdirmişdir

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 29 oktyabr


## “Nar” müştərilərin ehtiyaclarına cavab verən məhsullar təqdim etməkdədir

“Nar” müştərilərin ehtiyac və gözləntilərini qarşılamaqla onların məmnuniyyətinin artmasına davamlı investisiya yatırır. Mobil operator hər zaman müxtəlif müştəri qruplarının konkret ehtiyaclarına cavab verən məhsullar təqdim etməkdədir”. Bunu “Azerfon”un Baş icraçı direktoru Qunnar Panke “Business Time” jurnalına geniş müsahibəsində deyib. Onun sözlərinə görə, “Nar”ın abunəçilərin seçiminə çevrilməsinin əsas səbəbi müştəri yönümlü məhsullardır: “Bizim xidmətlər hər bir müştərinin ehtiyacları əsasında, onları məmnun etmək məqsədilə hazırlanır. Müştərilərimizin bu və ya digər məhsul və xidmətlərimizə olan tələbatını öyrənməklə və araşdırmaqla, demək olar ki, hər bir müştəri qrupu üçün fərdi yanaşma tapa bilmişik. Onlara münasib həllər arasında seçim etməyə imkan veririk”.



“Nar”ın müştəri məmnuniyyətinin artırılmasına davamlı investisiya qoyduğunu deyən Q.Panke əlavə edib ki, ilk növbədə, xərclərin tam şəffaflığını təmin etməklə rahat və istifadəsi asan məhsullar təqdim edilir: “İkincisi, rəqəmsallaşma bir çox müştərilər üçün vacibdir. Lakin biz ənənəvi, fiziki kanallar vasitəsilə xidmət olunmağı üstün tutan müştərilərin ehtiyaclarını da diqqətdən kənarda saxlamırıq. Üçüncü şüarımız isə məhsullarımızı qiymət baxımından münasib saxlamaq üçün xərcləri minimallaşdırmaqdır. Bizim üçün ölkənin ən çox müştəri yönümlü mobil operatoru olmaq budur”. Baş icraçı direktor əlavə edib ki, müştərilər mobil operatordan keyfiyyətli şəbəkə xidməti gözləyir və hazırda “Nar”ın təklif etdiyi geniş əhatəlilik və şəbəkə Qərb ölkələri səviyyəsindədir.

Mobil operatorun qarşıda duran strategiyası barədə də danışan Q.Panke qeyd edib ki, gələcəkdə diqqət yönəldiləcək sahələrdən biri müştərilər üçün təqdim olunan xidmət və həllərin daha da təkmilləşdirilməsidir. Bundan başqa, məmnun olan və doğru yerdə olduqlarına əmin olan müştəri bazası hesabına təbii artıma nail olmaqdır. Qeyd edək ki, Azerfon”un Baş icraçı direktoru Qunnar Pankenin “Business Time” jurnalına geniş müsahibəsini aşağıdakı keçid vasitəsilə oxumaq olar: http://fins.az/musahibe/1001411/nar-musterilerin-ehtiyaclarina-cavab-veren-mehsullar-teqdim-etmekdedir.html

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Keçən ay ölkəyə gətirilən avtomobillərin sayı açıqlanıb



Sentyabrda Azərbaycana idxal olunan avtomobillərin sayı 4213 olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəyə gətirilən avtomobillərin 125-i sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 3737-si əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitəsi, 335-i yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 16-sı isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.

## ELAN

8 saylı Binəqədi birinci seçki dairəsinin 34 saylı məntəqə seçki komissiyasına məxsus möhür itdiyi üçün etibarsız sayılır.

***

Abbasova Aidə Yunis qızının adına verilmiş 22.07.2008-ci il 2808005016 saylı Şabran rayonu, Rəhimli kəndində yerləşən 0,9824 ha torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

***

Abbasova Aidə Yunis qızının adına verilmiş 22.07.2008-ci il 2808005017 saylı Şabran rayonu, Rəhimli kəndində yerləşən 2,6286 ha torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Zəngilanın işğalından 26 il ötür




Oktyabrın 29-da Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 26 il ötür. 1988-ci ildən 1993-cü ilin noyabrınadək düşmən hücumlarına sinə gərən, yüzlərlə şəhid verən Zəngilan işğala məruz qalan ən sonuncu rayon oldu. Qubadlı və Cəbrayılın işğalı nəticəsində, mühasirəyə düşən rayon əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə gördü. Əks-təqdirdə, ikinci bir Xocalı Soyqırımının baş verməsi qaçılmaz olacaqdı.

Zəngilan inzibati rayon kimi, 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan İran İslam Respublikası, qərbdən Ermənistanla həmsərhəddir. Zəngilan Birinci Qarabağ müharibəsində 188 şəhid verib, bugünədək rayonun 44 sakini itkin düşmüş sayılır. Bakı-Culfa-Naxçıvan dəmiryolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Ərazisi 707 kvadrat km, əhalisi isə 35 min nəfərdən çox olub. Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edib. İşğal olunmazdan əvvəl, bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki-peşə və musiqi məktəbi, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu var idi.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, öz ərazilərimizi işğalçılardan təmizləyəcəyik və orada yeni həyat yaradacağıq. Bunu 2016-cı ilin aprel döyüşləri, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağının qaldırılması sübuta yetirdi. Dövlət başçısının göstərdiyi qətiyyətli mövqe, gündən-günə hərtərəfli formalaşan qüdrətli Azərbaycan Ordusu və xalqımızın mübariz ruhu işğal olunmuş torpaqlarımızı gec-tez erməni işğalından azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq və minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır.

Onu da qeyd edək ki, digər məcburi köçkünlər kimi, zəngilanlılar da dövlət qayğısı ilə əhatə olunublar, onların həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər görülüb. Lakin bu diqqət zəngilanlıların doğma ocağa qayıtmaq arzusunu unutdurmayıb. Onlar inanırlar ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək və həmin vaxt çox da uzaqda deyil.

***ZÜMRÜD***

## Binəqədi rayonunda “Nəsimi işığında” adlı növbəti tədbir keçirilib





Binəqədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ilin “Nəsimi İli” elan olunması və dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar “Nəsimi dühası-650 il” adlı layihə çərçivəsində 298 və 299 nömrəli tam orta məktəblərin birgə təşkilatçılığı ilə 299 nömrəli tam orta məktəbin akt zalında “Nəsimi işığında” adlı növbəti tədbir keçirilib.

Tədbir də Dövlət himninin səsləndirilməsindən sonra bədii hissə ilə davam etdirilib. Tam orta məktəblərin şagirdlərinin ifasında müxtəlif qəzəllər ifa edilib, Topal Teymurla Nəsiminin dialoqunun əks olunduğu kompozisiya nümayiş etdirilib. Tədbirdə çıxış edən 299 nömrəli tam orta məktəbin direktoru Solmaz Kazımova qonaqları salamlayaraq, tədbirin əhəmiyyətindən bəhs edib.

YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edərək, Nəsiminin dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutduğunu, əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etdiyini bildirib. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, layihə çərçivəsində Binəqədi rayonunun bütün tam orta məktəblərində İmadəddin Nəsiminin şəxsiyyətinə, yaradıcılığına və fəlsəfəsinə həsr olunmuş bir neçə nominasiya üzrə - musiqi, bədii qiraət, rəsm nümunələrinin nümayiş etdirilməsi nəzərdə tutulub. Rayonun tam orta məktəblər üzrə təqdimatlar nümayiş olunduqdan sonra hazırlanmış tamaşaların əsasında final tədbirinin və öncədən təsdiq edilmiş münsiflər heyətinin qərarına əsasən, mükafatlandırılma mərasiminin keçirilməsi planlaşdırılır.

***ZÜMRÜD BAYRAMOVA***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**